

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Erməni vəhşiliyi BMT-yə çıxarılır




8

SƏS

№ 200 (7125)

30 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Qalib Azərbaycanın növbəti qələbəsi: 30 oktyabr 2020 - ci il!



2

# İTİRİLMİŞ ŞANS




3

## Gözdəymə: xurafat, yoxsa mənfi bioenerji?



11

## Hansı qərarla qanunsuz tikili sökülə bilər?



16

## DİQQƏT: Altı günlük dərs həftəsi ləğv olunur?



14

## Kürdəmirdə yol qəzası olub, polis əməkdaşı həlak olub



16

## Qarabağın zəruri imkanlara malik turizm potensialı



12

# Qalib Azərbaycanın növbəti qələbəsi: 30 oktyabr 2020 - ci il!



30 ilə yaxın Ermənistanın işğalında qalan yurd yerlərimiz birbirinin ardınca azad olunur, həmin torpaqlarda bayraqlarımız dalğalanırdı. Artıq vətən müharibəsinin 34-cü günü idi. Tarix zəfərimizi yazırdıq. Yaşadığımız və şahidi olduğumuz hadisələr bunu deyirdi. Dörd il bundan əvvəl, 30 oktyabrda "Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" - deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirmişdir. Bu və ya digər ərazilərin işğaldan azad olunması Azərbaycanın güclü və qüdrətli bir ölkə olduğunu təqdim edirdi. 44 günlük vətən müharibəsinin reallıqları bir daha təsdiqlədi ki, Azərbaycan Prezidenti İlham Əliyev həqiqətən də böyük siyasi xadim, strateqdir və hər bir məsələnin müdrikliklə həllinə nail olur. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması, münaqişənin bitməsi xalqımızın tarixinə qızıl hərflərlə Zəfərimizi yazdı. Xalqımızın Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməsi, həmrəyliyi, milli birliyi, vahid amal uğrunda birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində 30 il ərzində silahlanmış, istehkamlar qurmuş düşmən üzərində Qələbəmizə nail olduq. Bu Qələbə xalqımızın əzmini, qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi və sübut etdi ki, Azərbaycan xalqı qələbəni döyüş meydanında əldə etdi.

## "MƏĞLUBEDİLMƏZ ERMƏNİ ORDUSU" MİFİ DAĞIDILDI

Zəfər tarixini yazmış Azərbaycan Ermənistana sarsıdıcı zərbə vurmaqla "məğlubedilməz erməni ordusu" mifini dağıtdı və Ermənistan hakimiyyətini 44 gün ərzində təslim olmağa vadar etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan dünyaya siyasi və hərbi gücünü göstərdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi və Prezident İlham Əliyev siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasına səbəb oldu.

2020-ci il noyabrın 10-da Azərbaycanın Qələbəsini təsdiqləyən üçtərəfli Bəyanat imzalandı. Dəmir yumruğun gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Artıq 30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımız bu gün dirçəlir. O yerlərə yeni nəfəs gəlib. Xarı bülbülümüz nigaran baxışlarını yollardan çəkilib, hər gəlib-gedən əzəli sakinlərinə "Xoş gəldin", - deyir. Təbiət də oyanıb. Bu oyanış böyük bir müjdəyə susuz idi. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara QƏLƏBƏ sevincini yaşatdı. Gözün aydın AZƏRBAYCAN! - deyirik bir daha. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Vətən oğulları hər qarış torpağın müdafiəsində dayandılar və Şəhid də oldular, qazi də. Azərbaycan tarixi ədaləti bərpa etdi. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksələn oğullar Vətən savaşında şücaət göstərərək, düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. Hərb meydanında igidlik göstərən, vətən torpağını düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Onların hər biri ilə qürurlanır, onlara borcluyuq. Vətənimizin ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli vəzifəsini yerinə yetirən vətən oğulları dövlətimiz tərəfindən bir sıra medal və ordenlərə layiq görülдülər.

Çox keçmədi ki, xalqımızın igidlik göstərmiş övladları, gəncləri dövlət başçısının Sərəncamı ilə yüksək adlara layiq görüldülər. Bu onlara qarşı bir ehtiramdır, sevgidir. Azərbaycanda Vətən Müharibəsi ilə bağlı orden və medallar və fəxri ad təsis edildi. "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları və s. Vətən müharibəsində torpaqlarımızın düşməndən azad olunmasında qəhrəmanlıq, şücaət göstərən şəxslər təltif olundular. Bundan başqa, döyüşdə qəhrəmanlıq, şücaət göstərən vətən oğullarına "Vətən Müharibəsi Qəhrəmanı" adı da verildi. Bütün bunlar dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür.

## İŞĞALÇI ERMƏNİSTANIN MƏĞLUBİYYƏTİNİN GÖSTƏRİCİSİ - QƏNİMƏTLƏR PARKI

Paytaxtımızda açılışı olan Hərbi Qənimətlər Parkı vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisidir. Parkın adı hər şeyi demiş olur. 44 günlük müharibədə Azərbaycan ordusunun gücü nəticəsində erməni ordusu məhv edilərək, məğlubiyyət uğradı. Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkı 44 günlük müharibənin gedişi, Azərbaycan ordusunun qalibiyyəti ətrafında olan fikirləri əks etdirir. Belə ki, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışı zamanı lövhənin qarşısında çıxış edərkən bildirmişdir ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb: "Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var".

## "BUDUR, ONLARA VERİLƏN CAVAB. QARABAĞ AZƏRBAYCANDIR!"

Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Artıq Azərbaycan ordusu 90-cı illərin ordusu deyil. Nizami və güclü Azərbaycan ordusu var. Müasir silahlarla təchiz olunmuş ordumuz var və 44 günlük döyüş meydanında öz sözünün deyən bir ordu. Dövlət başçısı bildirib ki, hələ müharibənin getdiyi dövrdə Mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik. Həmin gün yetişdi. Cənab Prezident "Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər", deyərək bildirib ki, qoy ermənilər də görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı: "Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!"

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətdi. Döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirərək, dinc sakinləri qətlə yetirdi. Sərgilənən eksponatlar həm də düşmənin törətdiyi müharibə cinayətlərini özündə əks etdirir. Həmin qənimətlər arasında düşmənin dinc əhalimizin yaşadığı əraziləri və gecə saatlarında yaşayış binalarını hədəfə alaraq ölkəmizə atdığı "İsgəndər-M" raketlərinin qalıqları var. "İsgəndər M" raketinin qalıqlarına baxan Prezident İlham Əliyev "Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular", - deyərək bunun Ermənistanın hərbi cinayətinin sübutu olduğunu bildirib: "Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər".

## "BİZ DÜNYADA HEÇ VAXT OLMAYAN QƏLƏBƏNİ QAZANMIŞIQ"

Düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, onların hərbi resursları darmadağın edildi. Hərbi Qənimətlər Parkı Azərbaycanın əldə etdiyi tarixi Zəfərdə düşmənin məğlubluğunun nümayişi baxımından böyük əhəmiyyət malikdir. Azərbaycan tarixi qələbəni əldə etdi. Özü də 44 gün ərzində. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir: "Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq".

***Zümrüd BAYRAMOVA***

# İTİRİLMİŞ ŞANS

***Yeni dünya nizamında, yeni dünya düzənində haylar Ermənistanı görə bilmirlər və heç görə də bilməzlər. Daha dəqiq desək, ermənilər görürlər və başa düşürlər ki, yeni dünya düzəninin formalaşmasına rəsmi İrəvan heç reaksiya belə vermir, yaxud reaksiya verə bilmir. BRICS sammiti də bir daha təsdiq etdi ki, Ermənistan sadəcə olaraq, ancaq müşahidəçi kimi proseslərə qatılır. Bu isə o deməkdir ki, Ermənistan bir-birinin ardınca imkanlarını və öz şansını əldən vermiş olur və məhz BRICS sammiti işğalçı ölkə üçün əldən verilmiş, itirilmiş şans hesab edilir.***




## İşğalçı ölkənin başçısının BRICS sammitində sonuncu gün "peyda olması", təqdim olunan fürsəti dəyərləndirməməsi məntiqi suallar doğurur

Ermənistanın baş naziri Nikol Paşinyanın BRICS sammitində elə sonuncu gün "peyda olması" özü belə işğalçı ölkənin öz şansını əldən verdiyi, itirdiyi barərə qənaətə gəlmək üçün kifayət edir. Bir ölkə liderinin sammitə sonuncu gün qatılması ən azından o deməkdir ki, erməni baş nazirin səfəri məhsuldar olmayıb və sadəcə olaraq bir rəsmi səfər olub. Əlbəttə ki, baş nazir Nikol Paşinyanın belə bir gecikmiş gedişi və "rəsmi səfəri" onun bloka üzv ölkələrin liderləri ilə tam ünsiyyət imkanlarını xüsusən əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Nəinki məhdudlaşdırıb, tamamilə heçə endirib. Bu məhdudiyyətin fonunda əlbəttə ki, məntiqi suallar yaranır və ən başlıcası da bu məhdudiyyətlərlə onun həmin sammitə niyə qatıldığı sualıdır. Görəsən, onun həmin sammitdə iştirakı nə dərəcədə Ermənistanın xeyrinə ola bilərdi və bunun nə dərəcədə düşünülmüş addım olduğu heç bir ermənini də düşündürməyibmi?

BRICS sammitində Çin, Hindistan, Braziliya, Cənubi Afrika, ərəb ölkələri və başqa iqtisadiyyatı sürətlə inkişaf edən ölkələr iştirak edirdilər. Həmin sammit iqtisadi baxımdan sürətli inkişafa sahib olan ölkələrlə mühüm əlaqələr qurmaq və əlaqələri gücləndirmək, genişləndirmək üçün unikal fürsət təqdim etdiyi halda, niyə Ermənistan lideri ən sonda bu tədbirə qatıldı? Bu fürsətdən yararlanmaq heçmi erməni liderini maraqlandırmayıb? Yəni, bütövlükdə erməni cəmiyyəti üçün də maraqlı olmayıb ki, işğalçı ölkə liderinin həmin sammitə vaxtında, zamanında gedişi ilə bağlı ortaya sual qoyulsun? Həqiqətən də bu sammitdə təqdim edilən fürsət və əldə edilməsi mümkün olan şansı bir də nə də hay başa düşməyib? Axı, öz saymaz gedişi və ən sonda sammitə qatılması ilə Paşinyan bu şansdan istifadə etmək əvəzinə, məzmunlu müzakirələr və danışıqlar proseslərində iştirak imkanını dəyərləndirmək yerinə, qısa səfərlə məhdudlaşmağı məqbul hesab edib. Belə çıxır ki, bütün diplomatik tədbirlərə qatıldığı şəkildə olduğu kimi, bu dəfə də Paşinyan sammitə belə ən sonda qatılıb, amma fürsəti qaçırdığını və şansı da əldən verdiyini, itirdiyini ya qətiyyən başa düşə bilməyib, ya da bunu heç başa düşmək belə istəməyib və hesaba da almayıb.

## Ermənistan hakimiyyətinin beynəlxalq tədbirlərə qatılma tərzi və saymazlığı təəccüb doğurur və qətiyyən diqqətdən yayınmır

Hazırkı Ermənistan hakimiyyətinin, xüsusən də Nikol Paşinyanın beynəlxalq tədbirlərə qatılması, yaxud qatılma tərzi belə həqiqətən də təəccüb doğurur və qətiyyən diqqətdən yayınmır. Sanki bir ölkənin taleyi həmin ölkə liderinin və onun hakimiyyət komandasının heç vecinə də deyil. Paşinyan və onun hakimiyyət komandasının üzvləri elə bil ki, Qərbin konfrans və tədbirlərində sadəcə, formal olaraq, elə-belə, görünmək xatirinə iştirak etməkdə daha istəkli və maraqlı görünürlər. Daha dəqiq və qısa şəkildə deyək, ancaq iştirak etməkdə maraqlıdırlar və bununla da işlərini bitmiş hesab edirlər. Yəni, formal olaraq, iştirak etməklə kifayətlənirlər və qalanını heç düşünmürlər də. İstənilən tədbirin istər iqtisadi, istər siyasi, istərsə də rəsmi əhəmiyyətinə məhəl belə qoymadan iştirak etməkdə hansısa bir fayda olacağı rəsmi İrəvanı elə bil heç düşündürmür. Bu şəkildə iştirakın elə bil Ermənistan üçün təhlükəsizlik və iqtisadi inkişafla bağlı konkret məsələlərin həlli imkanlarını minimuma endirdiyi də nəzərə alınmır.

Heç bir təklif almayan, heç bir fürsətdən istifadə etməyən erməni baş nazirin şansını qaçırdığına görə, belə görünür ki, heç tükü də tərpənmir və əlbəttə, bunun da bir səbəbi var. Hər halda, Ermənistan hakimiyyətinin, şəxsən erməni baş nazir Nikol Paşinyanın BRICS kimi bir sammitə belə ən sonda qatılmasının arxasında müəyyən məqamlar gizlənir. Əks halda, qorxaq bir erməni liderinin bu şəkilsə saymazlığını təsəvvür belə etmək mümkün deyil. Yaxud, ehtiyac içində, səfalət içərisində olan bir ölkənin liderinin məhz ölkəsi naminə ən xırda gəlir və mənfəət barədə düşünməli olduğu təqdirdə laqeyidlik etməsi axmaqlıq olsa da, hansısa mənada diqqəti cəlb edir və marağa da səbəb olur.

## İşğalçı ölkənin müqəddəratı dilənçi payından, yardımlardan asılı olaraq müəyyən edilib və eyni ənənə davam edir

Bəli, düşündürücü və məntiqi suallar məsələnin mahiyyətini ortaya qoyur və bəlli olur ki, Ermənistan hansısa tədbirə sadəcə olaraq, bunu Qərb ölkələrinə göstərmək üçün qatılır. Rəsmi İrəvan hansısa beynəlxalq tədbirdə, hansısa sammitdə iştirak etməklə, bunu Qərb ölkələrinə göstərməklə, işini bitmiş hesab edir. Maraqlıdır, nəyə görə? Niyə Ermənistan hökuməti belə bir formal iştirakla kifayətlənir və hansısa fürsətdən yararlanmağa çalışmır? Nəyə görə hansısa imkanların dəyərləndirilməsi haqda düşünülmür? Bəs haylar, Ermənistan hakimiyyəti nə barədə düşünür və nəyə ümid edir? Həqiqətən də maraqlı məqamdır və fürsəti dəyərləndirməməyi, şansı əldən verməyi, itirməyi nəzərə belə almamaq qətiyyən axı səbəbsiz ola bilməz.

Tarixən Ermənistanın Qərbdən ianələr və dəstək alması heç də dünya ictimaiyyəti üçün sirr deyil. Hətta Cənubi Qafqazda sonradan məskunlaşan bu köçəri tayfanın, bu gəlmə toplumun tarix boyu ancaq böyük dövlətlərin aləti olaraq mövcudluğu fonunda aldığı dəstəyin, yardımların hesabına mövcudluqlarını qorumaları da bəllidir. İndiki dövrə qədər Ermənistanın hansısa bir iqtisadi layihəyə, qlobal və ya regional layihəyə qoşulduğunun, hansısa gəlir əldə etmək üçün münasibətlər qurduğunun şahidi olan olmayıb. Ancaq onun şahidi olmuşuq ki, bu işğalçı ölkənin müqəddəratı dilənçi payı almaqla, yardımlarla müəyyən edilib. İndi də eyni ənənə davam edir və hələ də haylar, onların başında duran başsız başçılar hansısa imkanlar dedikdə, ancaq böyük bir ölkənin, məsələn, Qərbin "əlinə baxmağı" başa düşürlər. Hələ də Ermənistan tərəfi iqtisadi layihələr, əməkdaşlıq və tərəfdaşlıq imkanları barədə başa düşmək belə istəmir. Ona görə ki, haylar, onların başlarının üstündə olan rəhbərlər ancaq yardımlara öyrəniblər və elə hesab edirlər ki, bununla daha qısa və asan yol seçiblər, eləcə də doğru yoldadırlar. Amma bərk yanılırlar, çünki onların görmək istədikləri mənzərə tamamilə dəyişib və heç də vəziyyət əvvəlki kimi deyil. Başa da düşə bilmirlər ki, Qərb özü belə çətin durumdadır və indi Avropa ölkələri özləri də ermənilərin, hayların hayında yox, məhz hər biri öz hayındadır. Belə bir vəziyyətdə həmin Qərb və Avropa ölkələrinə güvənmək, köhnə ənənəyə arxalanaraq iyanə və yardımlara, dilənçi payına ümid etmək ən böyük yanlışlıqdır. Haylar məhz bu yanlışlıqla, ümumiyyətlə, bu kimi ənənəvi yanlışlıqlarla itirilmiş şanslarını hələ də dərk edə bilmirlər və bu onların ən böyük bəlalarıdır...

## Suveren və müstəqil olmaması, Qərbin əlində alət olması fonunda Ermənistanın belə bir şansı itirməsi tamamilə ədalətlidir

Diqqətə çatdıraq ki, hayların güvəndikləri, bir dövlət kimi Ermənistanın sığındığı Qərb strukturları indi artıq iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr üçün konkret heç nə təklif etməyib. Daha doğrusu, təklif edə də bilməyib. Bununla yanaşı həm də görünən odur ki, BRICS ölkələri ABŞ və Avropanın təsirindən ayrı, yeni iqtisadi və siyasi reallıq yaratmağa yönəlib. Deməli, edə bilsəydi belə nə Qərbin, nə də Avropanın hansısa təklifinə ehtiyac duyulmayıb. Amma bu reallığı Ermənistan hökuməti başa düşə bilməyib. Başa düşə bilsəydi, ən azından erməni baş nazir Nikol Paşinyan özü də olsa fərqində olardı ki, Ermənistan bu yeni qlobal nizama inteqrasiya şansını əldən vermiş, itirmiş olub. Daha dəqiq desək, BRİCS sammiti Ermənistan üçün itirilmiş şans hesab olunur. Bəli, 4,5 milyarddan çox bazarı olan BRICS artıq köhnə Qərb sistemini keçməyə başlayan alternativ qlobal qərar qəbuletmə mərkəzini formalaşdırdığı halda, Ermənistan yenə də kənarda qalırsa, bu həmin ölkə üçün elə itirilmiş şansdır.

Ekspertlər də vurğulayırlar ki, BRİCS layihələrində iştirak ciddi fayda və böyük potensial deməkdir. Lakin bu imkanın uğurla həyata keçirilməsi aktiv diplomatik iş və BRICS platformasında inkişaf edən əməkdaşlıq və layihələrdə məqsədyönlü iştirak tələb edir. Bloka daxil olan ölkələr öz mövqelərini sürətlə möhkəmləndirir, yeni güc mərkəzləri roluna iddialı olurlar. Qeyd edək ki, BRICS Avropa İttifaqından fərqli olaraq öz üzvlərinə şərt qoymur. Daha aydın şəkildə desək, BRICS suveren, müstəqil və bərabərhüquqlu dövlətlərin birliyidir və əslində, Ermənistanın heç də suveren və müstəqil olmaması, ələlxüsus da Qərbin əlində alət olması fonunda belə bir şansı itirməsi, əldən verməsi tamamilə ədalətlidir. Bu sammitdə passiv iştirak və eləcə də Ermənistanın yeni qlobal ekosistemin bir hissəsi olmaq, bu təşkilatın artan imkanlarından faydalanmaq imkanından məhrum olması növbəti dəfə haqqın, ədalətin qələbəsidir. Ermənistan üçün, şəxsən Paşinyan və onun hakimiyyət komandası üçün elə Qərbin aləti olmaq kifayət edir və yaraşır da. Amma haylar və onların başbilənləri olan baş nazir Nikol Paşinyan, onun hakimiyyət komandası sığındıqları nə Qərbin, nə də Avropanın hansısa təklifinə, özü də edə bilmədiyi təklifə ehtiyacın olmadığını düşünsələr bu sammitdə, ümumilikdə, dəyişməkdə və inkişaf etməkdə olan dünya düzənində yer tapa bilmədiklərinin fərqində olmuş olarlar. Heç olmasa başa düşərlər ki, BRİCS onlar üçün artıq itirilmiş şans sayılır və belə getsə təkcə şanslarını deyil, çox şeylərini itirmiş, mövcudluqlarını belə sual altında qoymuş olacaqlar.

***İnam Hacıyev***

# ZƏNGİLAN:

## azad yurd abad yurda çevrilir

***Kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu ərazidə sərt quruluşa malik sıldırımlı qayaları özünə məskən seçən Zəngilanın əlindən alınmış əzəmətini qaytardı ona Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və Milli Ordumuz. Hələ qədim dövrlərdən üzü bəri bağrından axan çayların əmələ gətirdiyi dərin dərələrdən, Oxçu və Bərgüşad çayları arasında füsunkar Süsən dağı silsiləsindən, bu silsilədən cənub-şərqə doğru enərək qarşıda uzanan ucsuz-bucaqsız Ağoyuq düzündən, şimal-şərqində Qarabağ silsiləsi və bu silsilənin getdikcə alçalaraq əmələ gətirdiyi Geyən çölündən, ümumilikdə bir füsunkarlıq abidəsi Zəngilandan düşmən ayağı kəsildi.***

Dünyada II, Avropada I nadir çinar meşələrindən neçəsinə köksündə yer verən çinarlar diyarı, dağ vüqarlı, çinar əzəmətli Zəngilanın hüriyyəti özünə qaytarıldı. Dağlıq hissələrində 1800-2000 metr hündürlükdə olan enliyarpaqlı meşələrindən aşağıya doğru endikcə subalp və alp çəmənlikləri ilə təbiətin özünün özünə meydan oxuduğu bir möcüzənin fonunda 2020-ci ilin 20 oktyabr möcüzəsi baş verdi, Zəngilan azad edildi. Hansı ki, 1993-cü ilin 29 oktyabrında erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu və 9 gün sonra yenə də Zəngilandan, onun işğalından danışacaq, dərindən köks ötürəcək, təəssüf edəcəkdik. Lakin bu dəfə belə olmadı. İşğala 9 gün qalmış bütün bu ağrı-acıya son qoyuldu. Zəngilan düşmən tapdağından azad edildi.

### 636-cı ilin şəhəri - Zəngilan

Azərbaycanın hər qarış torpağı tarixdir, qədimdir, əsrlərin o üzüdür. Elə Zəngilan da.. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. Zəngilan şəhəri dedikdə, əslində Pircavan şəhəri nəzərdə tutulmalıdır. Çünki Zəngilan şəhərinin əsl adı Pircavan, yaxud da Pirçivan olmuşdur. Zəngilan isə həmin şəhərin və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı idi. Lakin sözün kökündə "Pir" sözü olduğu üçün tariximizi təhrif etmək məqsədi ilə rayona 1930-cu ildə Zəngilan adı verilmişdir. İlk adı Pircavan olan bu şəhər isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır və 1967-ci ildə hazırkı Zəngilan şəhərinə şəhər statusu verilmişdir.

Zəngilanın qədim Şərifan kəndində yerləşən Şəhri-Şərifan abidəsi, Məmmədbəyli türbəsi, XIV əsr Hacallı dairəvi bürcü, Yenikənd sərdabəsi, XVII - XVIII əsrlərə aid, Səfəvilər dövründə tikilməsi güman edilən Zəngilan şəhər məscidi, xalq arasında "Qız qalası" da adlandırılan Bartaz qız qalası, muzeyləri, Koroğlu daşının hər biri tarixin minilliklərindən xəbər verir, Zəngilanın qədimliyini təsdiqləyir.

Zəngilan şəhəri 4 kilometrlik bir məsafədə Oxçu çayın sağ sahilində, Çeşməgözlü deyilən bir yerdən cənuba doğru ərazidə salınıb. Bu şəhərin özünün bir çox qədim məhəllələri vardır. Çeşməgözlü, Köhnə Pirçivan, Məscid düzü, Şaftalı dərəsi, Kirdəzir dərəsi, Bağırsaq dərə, Muncuqlu dərə, Çala dərə, Üst məhəllə... Hər biri bir tarixi yerlə, tarixi hadisə ilə bağlı məhəllələr...

### 27 illik həsrət

Sovet quruluşunun həyatımıza daxil olması ilə tariximizin təhrif olunması Zəngilanın da tale payı olmuşdur. Bu dövrün




bərqərar olduğu 70 ildə rayonun ərazi vahidində dəyişiklik olmuş, Zəngilan bir neçə dəfə Qubadlının, Qubadlı Zəngilanın tərkibinə daxil edilmişdi. Bu dəyişikliyin heç biri Azərbaycanın tarixi əraziləri üçün bir mahiyyət kəsb etməsə də, imperiyanın gələcək planlarında özünəməxsus yer tutmuşdur. Elə 70 ilin sonlarında Zəngilanın da Qarabağ və digər rayonlarımız kimi işğalın qurbanı olması da illərin işğalçılıq planının həyata keçirilməsinin vaxtının çatdığının göstəricisi idi. Bu plan 1993-cü ildə baş tutmuşdu. Günahsız insanlar öz dədə-baba yurdundan zorla çıxarılmış, evləri dağıdılmış, ata-babalarının uyuduğu qəbiristanlıqlar məhv edilmişdi. Bölgənin bütün tarixi abidələri, məscidləri nankor ermənilərin qurbanlarına çevrilmişdir.

İnsan o zaman qədirbilən olur ki, onun kökü, xalqı, milləti ilə bağlı dəyərləri olur. Bu dəyərləri qorumaq isə özünün gözlərini qorumaq qədər vacib olur. Xalq yox, tayfa, millət yox azlıq, kök yox, yalançı gövdələrdən ibarət ermənilərdən, sözün həqiqi mənasında, bundan fərqli nə isə gözləmək də olmazdı. Nəticədə isə 27 il idi ki, zəngilanlılar yurd həsrəti ilə alışıb-yanırdı. 27 il idi ki, onlar yurd yerlərinin sakini yox, qonağı idilər: yuxularında Zəngilanda olmaqla, Zəngilanı xəyallarında qurmaqla... Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik".

### Bəylərin, ağaların şəhəri

Sovet dövrünün 70 ilinin başlanğıcında "bolşevik hərəkatı" liderlərinin Azərbaycan bəylərini, ağalarını düşmənə çevirib xalqa təqdim etməsinə baxmayaraq tariximizin səhifələrində bəylərin, ağaların silinməz izləri var. Onların dövrün siyasi rəhbərləri kimi fəaliyyəti, ictimai işlərdə fəallığı, məmləkətdə tikdirdikləri məktəblər, məscidlər, körpülər, saldıqları yollar və digərləri bu gün Azərbaycan tarixinin bir hissəsini təşkil edir. Zəngilan rayonunun ərazisi də ötən əsrin əvvəllərində əsasən bəylərin çəltik zəmilərindən və onların özlərinə məxsus yaşayış evlərindən ibarət idi. Bəylərin, ağaların vaxtilə bu yurd yerinin abadlaşmasında xidmətləri danılmazdır

### İşğal tarixinə 9 gün qalmış...

2020-ci il oktyabr ayının 20-si bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Bu gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olunub. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır. Cənab İlham Əliyev 4 il öncə tarixə yazılan yeni şad xəbəri xalqımıza belə çatdırdı:

"İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"

### Azad Zəngilan abad Zəngilana çevrilir

Zəngilanın işğaldan azad olunmasından artıq 4 il ötür. Onu bu gün, düz 31 il əvvəl işğal olduğu gündə də xatırlayır, tarixinə, coğrafiyasına, sosial-iqtisadi vəziyyətinə, mədəniyyətinə yenidən nəzər salırıq. Çünki bu, bizim borcumuzdur. Azad edilmiş torpaqları işğal günlərində də xatırlamaqla tariximizi yaşatmış, onu gənc nəsillərin yaddaşına həkk etmiş oluruq. Qoy bizdən sonra gələn nəsillər nankor qonşumuzun soydaşlarımıza tutduğu divanı, torpaqlarımızda həyata keçirdiyi soyqırımını yaxşı xatırlasın. Xatırlasınlar ki, bir də heç vaxt o müdhiş işğal illərinə qayıtmayaq.

Bu gün bütün azad edilmiş torpaqlarımız kimi, Zəngilan da yeni dövrə qədəm qoyub: azad yurdumuz abadlığına qovuşur, sakinlərini ağuşuna alır. Zəfərin 4-cü ilində Zəngilana nəzər salarkən, onun "ağıllı kəndi" Ağalısının iki ildir, sakinlərini qoynuna aldığını görmək çox qürurvericidir. Burada 200 evdən ibarət gözəl kənd salınıb. Kəndin davamlı genişləndirilməsi, əlavə evlərin inşa edilməsi və infrastruktur layihələrinin şaxələndirilməsi də nəzərdə tutulur.

Eyni zamanda Zəngilanda həyata keçirilən işlər-Beynəlxalq hava limanının tikilməsi, yolların salınması, şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsinin nəzərdə tutulması, Baş planın konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmalarının təşkil etməsi, məscidlərin bərpası, bütün bunların fonunda isə "Zəfər" və "İşğal" muzeylərinin yaradılması yaşanan tarixin əbədiləşdirilməsi və Zəngilanın Zəngilana qaytarılmasıdır.

Zəngilanın digər coğrafi əhəmiyyəti ondan ibarətdir ki, buradan Naxçıvana cəmi 40 kilometrlik dəhliz uzanır. Dəhliz Naxçıvan Muxtar Respublikasının quru yolla paytaxta və ölkənin digər şəhər və rayonlarına çıxışını təmin edir. Qarşıda Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək Azərbaycanın növbəti tarixi nailiyyəti olacaqdır.

Həyata keçirilən bütün işlərin əsasında isə insan amili dayanır. O insan amili ki, dövlətimizin əsas prioritetidir.

***Mətanət Məmmədova***

# Gürcüstan kimin hədəfində?




***Gürcüstanda keçirilən parlament seçkilərindən sonra Cənubi Qafqazın bu ölkəsi bütün dünyanın diqqət mərkəzinə düşüb. Avropalılar da, opponentləri də, Gürcüstanın hakim partiyası ilə bərabər müxalifəti də, region ölkələri də seçkilərin nəticələrindən danışır, mülahizələr irəli sürür, razılıq və narazılıqlarını bildirirlər. Sanki dünyanın bütün problem bu ölkənin parlamentində həll olunacaqmış. Avropa heç vaxt olmadığı kimi narahatdır, gürcü müxalifətinin qələbəsində maraqlı olduğunu gizlətmir. Belə görünür ki, Gürcüstanın Mərkəzi Seçki Komissiyasının yekun qərarı qüvvədə qalsa Avropa bu kiçik ölkəni 3 milyonluq əhalisi ilə birlikdə siləcək.***

Macarıstanın baş naziri Viktor Orban Gürcüstanda keçirilən parlament seçkilərindən sonra dünya liderləri arasında birinci olub. Onun səfəri təkcə son səsvermənin nəticələrinin tanınmasının deyil, həm də Tbilisinin Avropaya inteqrasiya kursunun toxunulmazlığının simvolu oldu. Gürcüstan hökuməti qeyd edir ki, son vaxtlar Qərblə münasibətlər nəzərəçarpacaq dərəcədə pisləşib. Bununla belə, ekspertlər hesab edirlər ki, bu əlaqə yenidən bərpa oluna bilər. Parlament seçkilərindən dərhal sonra Gürcüstanın baş naziri İrakli Kobaxidze müsahibə verib və o, əmin edib ki, Tbilisi Abxaziya və Cənubi Osetiyanı "işğal etdiyi" müddətdə Rusiya ilə diplomatik münasibətləri bərpa etmək fikrində deyil.





Eyni zamanda o, Cənubi Qafqazda təkcə onun ölkəsinin Moskva ilə siyasi müstəvidə əməkdaşlıq etmədiyini vurğulayıb. Əsasən respublika ticarət-iqtisadi əlaqələrlə məhdudlaşır. Bundan əlavə, seçkilərdən sonra hökumətin ilk iclasında Kobaxidze qeyd edib: "Bizim çox mühüm xarici siyasət prioritetlərimiz var və əsas prioritet təbii ki, Avropaya inteqrasiyadır. Gələn ilin əvvəlindən intensiv rejimdə olacağını düşündüyümüz münasibətlərin bərpasını gözləyirik".




Baş nazir 2028-ci ilə qədər Brüsselin Aİ-yə daxil olmaq üçün tələblərinin 90%-ni yerinə yetirməyə, 2030-cu ildə isə bu təşkilata qoşulmağa ümid edir. Siyasi rejimə qarşı iddialara gəlincə, Gürcüstan hakimiyyəti onları əhəmiyyətsiz hesab edir. Xüsusilə, son səsvermədə ciddi qüsur tapa bilməyən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidəçilərinin hesabatı "Gürcü arzusu"nun etimadını təsdiqləyir. Bunu rəsmi Tbilisinin ən ardıcıl tənqidçilərindən biri, Avropa diplomatiyasının rəhbəri Cozef Borrell etiraf edib. "ATƏT/DTİHB-nin rəhbərlik etdiyi beynəlxalq seçki müşahidə missiyasının ilkin müşahidələrinə və gəldiyi nəticəyə əsasən, seçki günü ümumilikdə yaxşı təşkil olunmuş və prosedura uyğun qaydada keçirilmişdir. Lakin gərgin ab-hava, səsvermənin məxfiliyinin tez-tez pozulması və bəzi prosedur uyğunsuzluqları, habelə seçicilərə qarşı hədə-qorxu və təzyiqlər barədə məlumatların yayılması ilə yadda qalıb ki, bu da əhalinin prosesə etimadına mənfi təsir edib. Seçki kampaniyası zamanı seçicilərə, xüsusən də dövlət sektoru işçilərinə təzyiq halları geniş yayılıb", - Borrell və Avropa Komissiyasının birgə bəyanatında qeyd olunub. Təbii ki, həmin sənəddə deyilir ki, Gürcüstan vətəndaşlarının əsas hüquq və azadlıqlarına xələl gətirən, Avropa İttifaqının əsasını qoyduğu dəyər və prinsiplərə zidd olan istənilən qanunvericilik ləğv edilməlidir. Amma ən azı Aİ "Gürcü arzusu" hökumətini qeyri-legitim kimi tanımaq niyyətində deyil.

Maraqlıdır ki, Vaşinqton da respublikada keçirilən parlament seçkilərini avropalı həmkarlarından daha tənqidi dəyərləndirsə də, tanıyıb. "2004-cü ildən Gürcüstanda ölkənin gücünün mənbəyi olan güclü demokratiya var və dünənki fəaliyyət gürcü xalqının demokratiyaya sadiqliyini bir daha təsdiqlədi. Beynəlxalq və yerli müşahidəçilər seçki gününün ümumən yaxşı idarə olunması ilə razılaşsalar da, biz pozuntular və tək-tək zorakılıq hadisələri ilə bağlı hesabatları qeyd etdik. Beynəlxalq müşahidəçilər nəticələrin azad və ədalətli olduğunu deməyiblər", - ABŞ Dövlət Departamentinin katibi Entoni Blinken bildirib.



Lakin Gürcüstan müxalifəti hələ də səsvermənin nəticələrini tanımaqdan imtina edir. "Bu dövlətin yeganə müstəqil qurumu kimi demək istəyirəm ki, mən bu seçkiləri tanımıram, onları tanıya da bilmənəm, çünki bu, Rusiyanın buraya daxil olmasını, Gürcüstanın Rusiyaya tabe olmasını tanımaqla eynidir. Mən bu ölkəyə bunun üçün gəlməmişəm", - deyə Gürcüstan prezidenti Salome Zurabişvili bildirib. O, həmfikirlərini oktyabrın 28-i axşam mitinqə çıxmağa çağırıb. Parlamentin rəhbəri Şalva Papuaşvilinin sözlərinə görə, prezident bununla onun Gürcüstanın dağılması ssenarisində iştirakını təsdiqləyib.

Bu arada parlamentə daxil olan bütün müxalifət partiyaları qanunvericilik məclisinin yeni çağırışını boykot etdiklərini bəyan ediblər. "Gürcü Arzusu"nun işləməsi üçün deputatların üçdə ikisi olmayacaq. Beləliklə, hakimiyyətin qanunvericilik qolunun iflic vəziyyətindən danışmaq olar. Gürcü politoloq Petre Mamradze hesab edir ki, Qərb keçmiş seçkilərin legitimliyini tanımağa məcbur olub, çünki onun nümayəndələri saxtakarlığa dair heç bir inandırıcı dəlil tapa bilməyiblər. Eyni zamanda, onun fikrincə, mövcud tənqid səsverməni müşayiət edən obyektiv problemlərə deyil, Amerika və Avropa siyasətçilərinin qərəzli mövqeyinə əsaslanır. "2008-ci il seçkilərində daha çox pozuntular oldu, lakin Vaşinqton və Brüssel onlar üçün faydalı olduğuna görə belə bir şey görməməyi seçdilər. İndi bütün istəkləri ilə "Gürcü arzusu"nda ciddi nöqsan tapa bilməyəndə Qərb siyasətçiləri qütbləşmənin mənfi təsirindən danışırlar", ekspert bildirib.

Eyni zamanda, Mamradze əmindir ki, Qərb liderlərinin bəyanatları gürcü gənclərini etiraz aksiyalarına səfərbər edəcək, lakin bu, çevriliş üçün kifayət etməyəcək. Əvvəla, onun fikrincə, müxalifət partiyaları həddən artıq parçalanıb və hətta adi məsələlərdə belə tez razılaşa bilmirlər. "Məsələn, oktyabrın 27-nə keçən gecə müxalifətçilər öz hərəkətlərini koordinasiya etmək üçün çox vaxt apardıqları üçün heç bir etiraz aksiyası olmadı. Əslində, yalnız bir gün sonra razılaşdılar, amma fürsət artıq qaçırılmışdı. Üstəlik, səs-küylü bəyanatlara baxmayaraq, onların hakimiyyətdə olan partiyanın xeyrinə saxtakarlığa dair heç bir sübutu yoxdur", - politoloq hesab edir.

Onun həmkarı Nika Çitadze isə əksinə, müxalifətin bir deyil, bir neçə irimiqyaslı etiraz aksiyası keçirə biləcəyinə inanır. Düzdür, onların məqsədi parlamenti və ya hökuməti ələ keçirmək deyil, respublikanın hakim elitasına təzyiqləri artırmaq üçün Qərb tərəfdaşlarına müraciət etmək olacaq. "Etirazlar hər gün deyil, stolüstü işlərlə qarışdırılacaq. Siyasətçilər Aİ və ABŞ ilə danışıqlar aparacaq və etirazçılar cəmiyyətin dəyişiklik tələbinin bariz nümunəsi kimi çıxış edəcəklər. Belə bir mübarizənin nailiyyətlərindən biri "Gürcü Arzusu"nun yaradıcısı Bidzina İvanişviliyə qarşı davranışını dəyişməsə, ona qarşı sanksiyalar ola bilər. Həmçinin, Qərb tərəfdaşları respublikanın hakim elitasını növbədənkənar parlament seçkiləri keçirməyə inandıra bilərlər", - Çitadze mümkünlüyünü istisna etməyib.

*Ardı Səh. 6*

# Gürcüstan kimin hədəfində?



Əvvəli Səh. 5

## Avropalıların səsi...

Avropa Komissiyasının sədri Ursula fon der Leyen deyib ki, Gürcüstan xalqı uzun illərdir demokratiya uğrunda mübarizə aparır, onların pozuntuların tez, şəffaf və müstəqil şəkildə araşdırıldığını görmək hüququ var: "Çünki azad və ədalətli seçkilər Avropanın əsas dəyəridir". Bundan əlavə, Bruges Universitetində tələbələr qarşısında çıxışı zamanı Ursula fon der Leyen qeyd edib ki, avropalılar kimi gürcülər də öz talelərinin yaradıcısı olmalıdırlar.

"Gürcüstan mühafizəkar, xristian və avropapərəst dövlətdir", bu barədə Gürcüstana gələn Macarıstanın baş naziri Viktor Orban sosial şəbəkələrdə yazıb. Onun sözlərinə görə, Gürcüstana "faydasız mühazirələr" oxumaq əvəzinə ona dəstək vermək lazımdır.

"Gürcüstan Onlayn" yazır ki, parlament seçkilərindəki qələbə "Gürcü arzusu" partiyasının xalqın etimadını qoruyub saxladığını göstərdi. Liberallar məğlub olduqdan sonra seçkilərin ədalətsiz keçirildiyi iddiası ilə hücumlar başladı. Bəzi insanlar məğlubiyyəti qəbul etməyi və əsl demokratiya qaydaları ilə yaşamağı bilmirlər. Macarıstanın xarici işlər naziri P?ter Szijjarto Gürcüstanda keçirilən parlament seçkilərini yenidən şərh edərək vurğulayıb ki, oktyabrın 26-da Brüsselin təklif etdiyi qüvvə və liberal "əsas axını" qalib gələn tərəf deyil, "suverenliyi, sülhü dəstəkləyən və hakimiyyətdə olan partiyadır. "Hər şey gün kimi aydındır. Gürcüstanda keçirilən seçkiləri Brüssel və liberalların təyin etdiyi seçkilər deyil, suverenlik, sülh və açıq şəkildə milli maraqları birinci yerə qoyan hakim partiya qalib gəldi. Liberallar məğlub olanda isə hücum başladı: seçkilər ədalətsiz keçdi, Gürcüstanda demokratiya yoxdur və s. və s... Biz "Gürcü Arzusu" Partiyasını gürcü xalqının etimadını qazandığına və qoruduğuna görə təbrik edirik və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığı inkişaf etdirməyə və Avropaya inteqrasiya prosesini dəstəkləməyə hazırıq", - deyə Sijarto yazır.





Macarıstanın xarici işlər naziri istehza ilə qeyd edib ki, Gürcüstandakı seçkilərin əsas tənqidçilərindən biri Litvanın xarici işlər naziri Qabrielius Landsbergisdir ki, onun partiyası 2020-ci ildə seçkilərdə qalib gəlib, oktyabrın 27-də keçirilən seçkilərdə məğlub olub: "Ən acınacaqlısı odur ki, əsas tənqidçilərdən biri dünənki seçkilərdə Litva elektoratı partiyasından yan keçən Litvanın Xarici İşlər Naziridir".

Qeyd edək ki, Litva Xarici İşlər Nazirliyi Gürcüstanda keçirilən parlament seçkiləri ilə bağlı bəyanat yayıb və həmin seçkilərin "həm seçki kampaniyası zamanı, həm də səsvermə günü görünməmiş insidentlər və sistem pozuntuları" ilə yadda qaldığını qeyd edib. "Gürcüstan prezidenti nəticəni tanımaqdan imtina edib, bu kontekstdə Litvanın bu seçkiləri azad və ədalətli kimi tanıması çətindir", - bəyanatda deyilir.




## Müxalifət təkrar seçkilər tələb edir

"Bizim çox konkret tələbimiz var - seçkiləri yenidən keçirmək, lakin onları beynəlxalq seçki administrasiyası vasitəsilə keçirmək", - "Birlik - Milli Hərəkat"ın liderlərindən biri Giorgi Vaşadze mitinqdə bildirib. O, komandası adından planları ictimaiyyətə təqdim edərək, yenidən seçkilərin təyin edilməsi məsələsindən başqa heç kimlə danışıqlara getmədiklərini qeyd edib.

"İnsanlar yalan içində yaşamaq istəmirlər - xalqın legitimliyi və beynəlxalq legitimliyi olmadan necə yaşamalıdırlar?! Təhlükəsizlik olmadan çölə çıxa bilmirdilər. Sabah və o biri gün xalqın legitimliyi və beynəlxalq legitimliyi olmayanda onlar necə yaşayacaqlar?", - bunu "Gürcüstan Naminə Qaxariya" partiyasının lideri Giorgi Qaxariya qanunverici orqanın yanında keçirilən mitinqdə deyib.

## Rəsmi mövqe

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, seçkiyə gələn seçicilərin sayı ilə bağlı yanlış məlumatlar təbliğat xarakteri alıb. MSK-nın sözçüsü Natia İoselianinin dediyi kimi, informasiya manipulyasiya edilir və vəziyyət elə təqdim olunur ki, sanki seçkilərdə siyahıda olanlardan çox adam iştirak edib. İoselianinin sözlərinə görə, yayılan məlumat həqiqətə uyğun deyil. "Bu gün səhər saatlarından etibarən maraqlı tərəflər seçkiyə gələn seçicilərin sayı ilə bağlı yalan məlumatlar yaymağa başlayıblar ki, bu da artıq təşviqat xarakteri alıb. Milli Statistika Xidmətinin məlumatları və səsverməyə gələn seçicilərin sayı müqayisə edilərək, məlumatlar manipulyasiya edilir və sanki siyahılardakılardan daha çox adam seçkilərdə iştirak etmiş kimi təqdim olunur. Biz qəti şəkildə bildiririk ki, yayılan məlumat yalandır. Maraqlı tərəflərin açıqladığı rəqəmlər Vahid Seçici Siyahısının faktiki məlumatları ilə üst-üstə düşmür. Aydındır ki, bütün bunlar məqsədli şəkildə baş verir. Əslində, seçki prosesi o qədər şəffaf keçdi ki, maraqlı tərəflər onu reallığa uyğun olmayan faktlarla gözdən salmağa çalışırlar. Dairələr də daxil olmaqla vahid seçici siyahısı artıq ictimaiyyət üçün açıqdır və seçkilərdən əvvəl bütün iştirakçı partiyalar üçün açıq idi. Seçki ili ərzində müxtəlif vaxtlarda siyasi partiyalar və qeyri-hökumət təşkilatları tərəfindən seçki administrasiyasından vahid seçici siyahısı tələb edilib ki, bu da seçici siyahısının mövcudluğunun qanunvericiliyə və beynəlxalq standartlara uyğun olduğunu təsdiqləyir. Seçki subyektləri və monitorinq təşkilatları seçkilərin keçirildiyi vahid seçici siyahısındakı məlumatları rəhbər tutmuşlar. Biz ictimaiyyəti düzgün məlumatla təmin etməyə davam edəcəyik və maraqlı tərəflərin seçiciləri çaşdırmasına imkan verməyəcəyik", - deyə Natia İoseliani bildirib.

Beləliklə, Gürcüstanda seçkilərin nəticələrini şübhə altına almaq istəyən kəsim informasiya qıtlığında çapalayır, etiraz edənlər saxtakarlıqdan danışır, amma fakt ortaya qoyan yoxdur. Seçkilərin ideal keçmədiyini qalib tərəf də etiraf edir, amma nəticələrə ciddi təsir edən qanun pozuntusunun olmadığı da ortadadır.

**V.VƏLİYEV**

# Yaxın qohumdan uzaq olun

***Uzun müddətdir ölkə mətbuatı qohum nikahların qadağan olunması məsələsini müzakirə edir. Ötən aylarda qohum nikahlarla bağlı Ailə Məcəlləsinə dəyişiklik təklif olundu və bununla da cəmiyyət iki cəbhəyə bölünüb. Bu nikahların genefondu dağıtdığını düşünənlər, qohumlar arasında bağlanan nikahları müdafiə edənlər. Yaxşı haldır ki, birincilərin sayı ikincilərdən çoxdur, lakin bu, ölkə əhalisini qohum nikahlardan çəkindirmək üçün yetərli deyil.***

"Qohum nikahlar" bir-biri ilə qohumluq əlaqəsi olan insanların ailə qurmasına verilən addır. Evlənən və nəsil verən şəxslər arasında genetik əlaqə varsa, gələcək nəsildə xəstəlik ehtimalı büyükdür. Statistikaya görə Azərbaycanda qeydə alınan qohum nikahların təxminən 60 faizi Bakı, Lənkəran, Astara və Şəkidə bağlanır.







## Qohumlaşan nikahlar xəstəlikləri də qohum edir

Təkamül prosesindən az-çox anlayışımız olduqda "qohumluq" anlayışını analiz edirik və anlayırıq ki, yer üzündəki bütün insanlar əslində bir-biri ilə qohumdur, sadəcə yaxınlıq və uzaqlıq dərəcələri, nəsil mərhələləri vacibdir. Qohum nikahı anlayışı, yaxın qan qohumluğu olan və ortaq nəsildən olan şəxslər arasında qohumluq əlaqəsi deməkdir. İnsanlar öz əmisi oğlu, bibisi qızı, dayısı oğlu, xalası qızı ilə evlənmənin gələcək uşaqları üçün zərərli ola biləcəyi ehtimalını inkar etmədən əvvəl, genetikanın nə olduğunu, ailələrdə xəstəliklərin necə baş verdiyini başa düşməlidirlər. Qohum evlilikləri bu genetik pozuntulara təkan verən, xəstəliyi qıcıqlandırıb oyadan amildir.

Xəstəliyi resessiv şəkildə daşıyan iki insan ayrı-ayrılıqda nikaha girəndə də onların uşağının bu xəstəliyə tutulma ehtimalı 25% civarında olacaq. Lakin eyni nəsil daxilində qohum nikahlarının bağlanması və bu nikahlardan uşaqların doğulması, xəstəliklərin inkişaf riskinin 50 %-dək artmasına səbəb olur. Bu resessiv genlərin daha tez birləşməsi, anadangəlmə qüsurların və ölümlərin əsas səbəbidir. Genetik problemlərin əhəmiyyətini də belə başa düşə bilərik: qadınlar normal hamiləlik yaşaya biləcək orqanizmə sahib olmalarına baxmayaraq, bunu yaşaya bilmir, çünki qohum nikahındadır. Onların doğulmamış uşaqları resessiv olan genetik anormallıqlar səbəbindən ya anomaliya ilə doğulur, ya da hamiləlik yarıda pozulur.

## Bizi valideynlərimiz kodlayır, əgər genlər xəstədirsə...

İnsanlarda 22 cüt autosom və ya cinsiyyət xromosomu və 1 cüt cinsi xromosom (oğlanlarda XY, qızlarda XX) var. Doğulmamış uşaq genini hər iki valideyndən - yarısını atadan, digər yarısını isə anadan alır. İnsanlar arasındakı fərqlərin səbəbləri, daha çox hüceyrələrdə mayoz prosesi zamanı genlərin rekombinasiyası ilə bağlıdır. Bundan əlavə, mutasiya halları və müstəqil variasiyalar da bir insanı digərindən fərqləndirən genetik dəyişikliklərə səbəb olur.

Bu nə deməkdir? Bəzi genlərimiz tərəfindən kodlaşdırılan fiziki, fizioloji və ya davranış xüsusiyyətlərimizin düzgün işləməsi üçün hər iki valideynimizdən aldığımız genin normal işləməsi şərtdir. Bizi kodlayan genlərdən biri xəstə olsa, yalnız biri işləsə belə, ona tabe göstəricilərimiz normal inkişaf edəcək, habelə orqanizmimiz qaydasında işləyə bilər. Lakin valideynlərimiz qohumdursa, hər ikisi eyni genetik xəstəliyin daşıyıcısıdırsa bizim onlardan aldığımız hər ik gen də qüsurlu olacaq.

Yəni, əgər tərəflər qohum olmasa idi və ikisindən birinin genində problem olsa idi belə, bir gen sağlam olduğu üçün dünyaya gələcək uşaqların orqanizmi çox zərər görməzdi. Lakin tərəflər qohumdur və eyni xəstə geni daşıyırlar, dünyaya gələcək övladlarına eyni xəstə geni ötürürlər. Bu zaman mutasiya problemləri yaranır. "Autosomal resessiv" genetik xəstəliyi olan bir şəxsin bu xəstəliyi daşımasının səbəbi, hər iki valideynindən zərərli mutasiyaya malik eyni geni miras alması deməkdir. Qohum evliliklərini qadağan edən qanun, bu cür nikahlardan doğulan şikəst uşaqların olmaması üçün şərtdir.

## Qohumla evlənib nəsil artırırsansa...

Qohum evliliklərinin nəsil davamlılığı risk altında olur. Əgər ailədə qohum nikahı olmayıbsa və ilk qohum nikahı gerçəkləşirsə onların anadangəlmə qüsurlu uşaqlarının doğulma nisbəti 3%-dən 4-5%-ə qədər artır. Ölüm göstəriciləri qohum nikahı olmayanlara nisbətən 3,5-4,4% yüksəkdir. Lakin ailə daxilində qohum nikahlarının tezliyi və sayı artdıqca bu faizlər də artır. Ölkəmizdə 3-4 nəsil ardıcıl qohum nikahı bağlamış ailələr var ki, bu nikahlardan doğulan uşaqlarda anomaliyalar, anadangəlmə qüsurlar var.

Əgər qohum nikahların qadağan edilməsi haqqında müzakirələr olmasaydı, qanun gündəmə gəlməsəydi, bizi Pakistan reallığı gözləyirdi. Əmiuşağı, xalauşağı, bibi-dayı uşaqları evliliklərinin nisbətinin 50%-i keçdiyi Pakistanda bu nikahlardan doğulan uşaqların ölüm nisbəti 8 % təşkil edir. Qohum evliliyi olmayan ailələrdə doğulan uşaqlarda bu ölüm nisbəti təxminən 5 % təşkil edir. İkiqat birinci dərəcəli qohum nikahından doğulan uşaqlarda ölüm səbəblərinin 41,2%-i resessiv genlərlə bağlıdır. Yəni, qohum nikahından doğulan uşaqlar da böyüyüb qohumla nikaha girirsə bu təhlükə 41 faizi ötür. Bu nisbət qohum evliliyi nəticəsində doğulan pakistanlı uşağın digər uşaqlara nisbətən resessiv genlərin yaratdığı genetik xəstəliyə tutulma riskini 13 dəfə artırır.

## Qohum nikahları ipi çəkilmiş bombadır

Ədliyyə Nazirliyinin qeydiyyat şöbələrində qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların sayı 2021-ci ildə 2 363, 2022-ci ildə isə 2 542, 2023-cü ildə isə 1 935 olub. Azərbaycanda qohum evliliyinin çox olması genetik xəstəliklərin geniş yayılmasının əsas səbəbidir. Bu xəstəliklər arasında beta talassemiya, metabolik xəstəliklər, əzələ distrofiyaları, aralıq qızdırması daha çox yayılıb. Qohum nikahların daha çox olduğu Şəki, Masallı və Bakıda bu irsi xəstəliklərin yayılma tempi 15 % təşkil edir. Bu xəstəlikər arasında ən çox yayılanı talassemiyadır. Talassemiya daşıyıcıları arasında qohumla evlənmə faizi yüksəkdir. Onların isə dünyaya xəstə uşaq gətirmə ehtimalı 25 %-dir. Azərbaycanda 500 min əlil insandan 200 min nəfəri məhz qohum nikahlarından doğulanlardır. Bu insanların günahı nədir? Qohumla qohum olmaq sevdasına düşən valideynin cəzasını övladları çəkir.

Qohum nikahlar problemi son illər dünyanı ciddi narahat edən məsələdir. İrsi xəstəliklərin çoxalması, fiziki cəhətdən məhdudiyyətli insanların artması, dünya əhalisinin böyük əksəriyyətinin genetikasının xəstə olması bu istiqamətdə tədbir görməyi sürətləndirir. Statistik göstəricilər deyir ki, dünya üzrə bağlanan nikahların 20 %-i qohumluq əlaqələri olan nikahlardır. Hər il dünyada doğulan körpələrin 8.5 %-i qohum nikahlarından doğulan körpələrdir. Azərbaycan kimi qohum nikahların çox bağlandığı ölkələrdə fiziki qüsurlu uşaqların doğulma tezliyi də sıx-sıx rastlanır. Qohum nikahlarına görə dünya ölkələri arasında liderlik edən ölkələr Hindistan, Misir və Türkiyədir.

## Niyə qohuma qız verib, qız alırlar?

Ölkəmizdə qohum nikahları bir çox səbəbdən bağlanır. Birinci səbəbi qohumdan qız almaqla evdə sabitliyi qorumaqdır. Belə düşünülür ki, əgər qohumdan qız alınsa qaynana-gəlin konfilikti olmaz. İkinci səbəbi odur ki, qohumla qohum olanda toy və nişan qiymətlərində, kənar xərclərdə güzəşt olunur. Üçüncü bir səbəb də odur ki, tərəflər qohumluq əlaqələrinin daha da möhkəmlənməsi üçün bu addımı atırlar. Üstəlik, qohumluq əlaqələri birtərəfli də qalmır, adətən qohuma qız verənlər o ailədən də qız alırlar, ikibaşlı, daha doğrusu üçtərəfli qohum olurlar - əzəli qohumluq, qız verməklə bağlanan qohumluq, qız almaqla bərkidilən qohumluq.

Problem o qədər böyükdür ki, həlli hardasa mümkün deyildi, əgər qanun məsələsi gündəmə gəlməsəydi. Çünki insanlar qohum nikahların fəsadları barədə məlumatlı deyil, maariflənmək istəmirlər, xəbərdarlıqlara məhəl qoymurlar. Həmçinin, qohum nikahları adətən ailə böyüklərinin təhriki ilə olduğundan gənclərin zorakı, habelə erkən evləndirilmə məsələsi də gündəmə gəlir. Erkən nikah hallarının bir çoxunda adətən qohum nikah gerçəyi var.

## Nə etməli?

Problemin həlli yalnız məcburi qaydada mümkündür. Qadağanın tətbiq ediləcəyi gün genefondun mühavizəsi istiqamətində ən böyük addım atılacaq. AR Ailə Məcəlləsi, Maddə 12-də qeyd edilən nikahın bağlanmasına mane olan hallardan biri də yaxın qohumlar arasında bağlanması halıdır. Düzəlişə qədər həmin maddədə yaxın qohumlar - valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey qardaş-bacılar nəzərdə tutulurdu. Yeni düzəlişdə yaxın qohumlarla yanaşı əmi, bibi, xala və dayıuşaqlarının da nikahının qadağan olunması əlavə olunub.

Qohum nikahları çoxdan qadağan etmək lazım idi, genetik sağlamlığı mühavizə edə bilmək üçün bu şərt idi. Çox gecikdik. Amma gec atılan addım da cəmiyyətin faydasınadır, növbəti ildən qanun qüvvəyə minəcək. Təmənnamız o idi ki, qadağa bir an öncə tətbiq edilsin, çünki qadağa barədə məlumatlanan insanlar qohum evliliklərini qanun qüvvəyə minmədən tezləşdirirlər. Yəni 1 il sonraya planlaşdırılan qohum əqdi, 1 il öncə bağlanır - nəticəsinin nə olacağını eyninə almadan, doğulacaq uşaqların şikəst olma ehtimalını düşünmədən.

İstisnasız olaraq, qohum nikahlar bacı-qardaş evliliyidir və yolverilməzdir. İnsanlar bunu anlamalıdır, istər könüllü, istər məcburi.

***Lalə Mehralı***

# Erməni vəhşiliyi BMT-yə çıxarılır

Zaman keçdikcə daha çox ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər, soyqırımı aktları barədə geniş və əhatəli məlumatlar, faktlar və sübutlar üzə çıxmaqdadır. Bu da müasir texnoloji yeniliklər, dünyanın bir sıra kitabxanalarına, dövlətlərin arxivlərindən informasiyalar əldə edilməsi nəticəsində əldə olunur. Ermənistanın xunta rejimlərinin zorakılığından bezərək xaricə üz tutan nisbətən savad sahibi olan elm adamları da iştirakçısı olduqları tədbirlərdə, TV-lərdə ermənilərin tarixin müxtəlif dönəmlərində azərbaycanlılara qarşı törətdiyi bəşəri cinayətlərdən söhbət açıb, erməni soydaşlarının terrorçu xislətə malik olduğunu etiraf edirlər. Ermənistan vətəndaşı Mesrop Martirosyanın ABŞ məhkəməsinə verdiyi ifadəsində birinci Qarabağ müharibəsi zamanı azərbaycanlı əsirlərə və mülki insanlara qarşı törədilmiş vəhşilikləri, cinayətləri detallı şəkildə bildirib. Ermənistan vətəndaşı, 1967-ci il təvəllüdlü Mesrop Martirosyan ABŞ Məhkəməsində 2000-ci ildə keçirilmiş dinləmələrdə Ermənistandan qaçması və ABŞ-dan sığınacaq istəməsini əsaslandırarkən, azərbaycanlı əsir və girovlarla bağlı diqqətçəkən faktlar açıqlamışdır. M.Martirosyan məhkəməyə ifadəsində hərbi əsir düşərgələrində əzab verilmiş, bədənlərinin hissələri kəsilmiş əsirləri gördüyünü bildirib: ”Mən qulaqları kəsilmiş insanlar görmüşəm Uşaqların kəsilmiş bu qulaqlarla oynamasının şahidi olmuşam”. M.Martirosyan bildirir ki, Qarabağda gedən hərbi əməliyyatlarda iştirak etməsi üçün 1991-ci ildə könüllü dəstəyə qoşulmaq qərarını verir. Lakin Martirosyan, sovet zabiti kimi həbsdə olan şəxslərin (əsirlərin) düşərgəsinə göndəriləcəyini bildikdə, qərarını dəyişdirdiyini deyir.

Martirosyan ifadəsində qeyd edir ki, məcburi qaydada orduya çağırıldıqdan sonra onu hərbi əsirlərin saxlandığı düşərgəyə göndərmək istəyiblər, lakin o bildirib: ”Mən əsgərəm, cəllad deyiləm. Mən əsirlərə qarşı eşitdiyim vəhşilikləri öz əməlimlə təkrarlaya bilmərəm”.

M.Martirosyan azərbaycanlı əsirlərə qarşı vəhşiliklər barəsində fikirlərini əsaslandırmaq üçün bir sıra beynəlxalq təşkilatların məqalələri və press-relizlərini də misal çəkir. Məsələn, o, məhkəmə heyətinin nəzərinə çatdırır ki, ”Human Rıghts Watch” təşkilatı 1993 və 1994-cü illərdə Ermənistan Respublikasının dəstəyi ilə Qarabağın erməni silahlıları tərəfindən bir çox vəhşiliklərin törədildiyini bildirib. M.Martirosyan bütün bu vəhşiliklərdə, o cümlədən hərbi əsirlərlə qəddarcasına davranma hallarında, onların analarının ermənilər tərəfindən girov saxlanılması, əsirlərin özlərinin isə təhdid altında terror aktı törətmək məqsədi ilə Azərbaycana göndərilməsi kimi hallarda iştirak etmək istəmədiyini bəyan edərək məhkəmədən iddiasının təmin olunmasını xahiş edib.












## Ermənilərin terrorçu toplum olduğunu dünya etiraf edir

M.Martirosyanın etirafı kimi digər misallar və sübutlar göstərmək olar ki, bəli, ermənilər özləri terrorçu toplumun nümayəndələridir. Dünyanın əksər dövlətləri və beynəlxalq təşkilatları da mövcud faktlardan məlumatlıdır, sadəcə, erməni lobbisinin təsiri və erməni terror təşkilatlarının hədələri bir sıra siyasətçiləri susmağa məcbur edir. Ancaq 44 günlük Vətən Müharibəsində Azərbaycanın hərbi, siyasi, diplomatik qələbəsindən sonra dünyanın əksər demokratik düşüncəli xalqları və hakimiyyətləri erməni lobbisinə qarşı dirəniş göstərməyə və Azərbaycanın ədalətli mövqeyini dəstəkləməyə başlayıblar. Bu səbəbdən də demək olar ki, çox yaxın vaxtlarda dünyanın əksər tərəqqipərvər xalqlarının siyasi dairələrini dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları, ümumiyyətlə, erməni toplumunun sivil, demokratik dünya üçün təhlükə mənbəyi olmasına dair dinləmələrini keçirilə bilər. Daha doğrusu, Azərbaycan dövlətinin Ermənistanın 30 il ərzində işğal olunan ərazilərdə törətdiyi dağıntılar, insanlara qarşı vəhşilikləri, mədəni irsinin məhv edilməsi iddiası ilə beynəlxalq məhkəməyə müraciət etməsindən sonra BMT-də erməni vəhşiliklərinə dair müzakirələrin aparılması və müvafiq qərarın qəbul edilməsi aktual görünür. Ortada olan, hələlik, müsbət nəticə ondan ibarətdir ki, dünyanın bir sıra elm ocaqları, tanınmış tarixçilər, siyasətçilər ermənilərin Qafqaza, xüsusilə də Azərbaycan ərazilərinə köçürülməsinin yanlış olduğunu bildirirlər.

Görünən ondan ibarətdir ki, ermənilərin bu ərazilərə köçürülməsinin bir günahı xarici xain ermənipərəst dairələrin və hökumətlərin rolu olubsa, digər günah elə böyük sərkərdələrimizin sadəlövhlüyü və xeyirxahlığı olub. Çünki böyük sərkərdələrimiz ermənilərin hiyləgərliklə bölgəyə yerləşdirilməsinin qarşısını alardılar. Ən azı onların saylarının artmasına qarşı ciddi tədbirlər görərdilər. Ancaq fakt ondan ibarətdir ki, ermənilərin bölgədə saylarının artmasına qarşı heç bir tədbir görməyiblər. Hətta yerlərdən hakimiyyətlərə olunan çağırışlara, ünvanlanan xəbərdarlıq məktublarına məhəl qoymayıblar. XVI əsrin əvvəlində Rəvan xan Səfəvi şahı Şah İsmayıl Xətaiyiyə məktub göndərək qeyd edir ki, hazırkı fars-molla rejiminin nəzarət etdiyi ərazilərdən Azərbaycan torpaqlarına köçürülən ermənilərin sayının çoxalması bizə çoxlu sayda problem yaradacaq. Təəssüf ki, Şah İsmayıl Xətai Rəvan xanın xəbərdarlığını nəzərə almayıb. Bu kimi laqeydlik, etinasızlıq nəticə etibarı ilə Rəvan xanın da qeyd etdiyi kimi, sonrakı proseslərdə xalqımıza acılar yaşatdı. Bu azmış kimi 1507-ci ildə Osmanlı torpaqlarından və digər xarici ölkələrdən 10.000 ermənin İrəvan, Qarabağ daxil olmaqla Azərbaycanın digər ərazilərində yerləşməsinə izn verdi. Baş verən proseslər onu göstərdi ki, Rəvan xanın söylədiyi həmin xəbərdarlıqdan sonralar da nəticə çıxarılmadığından Azərbaycan xalqı çox ciddi bəlalarla üzləşməli oldu.

## İki əsr ərzində ermənilər 2 milyondan çox azərbaycanlını qətlə yetirib

Tarixi sənədlərə istinadən qeyd olunur ki, iki əsr ərzində ermənilər 2 milyondan çox azərbaycanlını qətlə yetirib, on minlərlə yaşayış məskəni dağıdıb, yer üzündən silmişlər. Düzdür, burada böyük güclərin ermənilər göstərdiyi siyasi, hərbi dəstəkdə xüsusi rol oynayıb. Məhz xarici məkrli dairələrin dəstəyinə arxalanan ermənilər Cənubi Qafqaza köçürülüb, möhkəmləndikdən sonra azərbaycanlılara qarşı vəhşiliklər, soyqırımı aktları həyata keçirmişlər. 1918-ci ilə qədər zaman-zaman ermənilər dövlət yaratmaq iddialarını reallaşdırmaq üçün səylər göstərdilər. Nəhayət, ermənilər Rusiyanın himayəsi və dəstəyi ilə İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaratdılar. İstəsək də və istəməsək də reallıq ondan ibarətdir ki, İrəvanın ermənilərə verilməsində 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ciddi səhvləri rol oynamışdır. Bunu sonrakı mərhələlərdə cümhuriyyət qurucuları da qeyd ediblər. 1919-ci il dekabr ayının 1-də Fətəli xan Xoyski Nəsib bəy Yusifbəyliyə bir teleqram ünvanlayır. Həmin teleqramda göstərilir ki, İrəvanı Ermənistana verməklə biz sərhəd məsələsini həll etmiş olduq və ermənilərlə bizim daha heç bir problemimiz olmayacaq. 1919-cü ildə İrəvan torpaqlarının arxasınca Dərələyəz, daha sonra isə Göyçə ermənilərə verildi. Bir məsələni də xatırlatmaq lazımdır ki, 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda Azərbaycanın ərazisi 114 min kv. km idi. Amma 1920-ci il aprel ayında Azərbaycan ərazisi 86 min kv.km oldu. Çox təəssüflər olsun ki, 1918- 1920-ci illərdə ADC-nin bu cür buraxdığı səhvlər 1992-1993-cü illərdə AXC hakimiyyəti dövründə də təkrar olundu.

XX əsrin sonlarında Azərbaycanın aran Qarabağ ərazisi ermənilər tərəfindən işğal olundu. Qeyd etmək lazımdır ki, ermənilərin aran Qarabağı işğal etmək niyyəti olmayıb. AXC hakimiyyətinin prosesləri düzgün qiymətləndirib, ondan düzgün nəticə çıxarmaması ermənilərin Qarabağı, daha sonra isə aran Qarabağı işğal etmələrinə gətirib çıxarmışdır. Yəni bütün hallarda AXC-nin səhv, düşünülməmiş siyasəti Azərbaycan xalqının başına bəla oldu. XX əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olan Xalq Cəbhəsi Qarabağ məsələsini beynəlmiləlləşdirməklə eyni səhvi təkrarlamış oldu. Bununla onlar Azərbaycana ən böyük bəla gətirdilər. Çox təəssüflər olsun ki, bu məsələ tarixçilərimizin də diqqətindən kənarda qalıb. Biz buraxdığımız səhvlərdən çıxartmadığımız nəticələrin bəlasına düşmüşük. Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin, ermənilərin İran və Türkiyədən Rusiyanın işğal etdiyi torpaqlara köçürülməsi təsadüfi hal olmayıb. Beləliklə, ermənilərin köçürülməsi ilə adları çəkilən ərazilərin etnik tərkibi dəyişdirilməyə başladı. 1823-cü il məlumatına görə, Qarabağ vilayətinin (keçmiş Qarabağ xanlığının ərazisi) 20 minə yaxın ailəsindən cəmi 1, 5 minini erməni ailəsi təşkil edirdi. Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin şəkildə dəyişir. 1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 64,8 %, ermənilər isə 34,8% təşkil etmişdir. Rusiya bu siyasəti məqsədyönlü şəkildə dəyişməklə davam etdirilməyə başladı.

## Bu gün ərazi bütövlüyü və suverenliyi bərpa olunan, dünyanın ən qüdrətli dövlətlərindən olan Azərbaycan var

1918-1920-ci illərdə Ermənistan Respublikasının törətdiyi azərbaycanlı qırğınları Qarabağı da əhatə etmişdi. 1923-cü ildə Qarabağ Muxtar Respublikasını təşkil edərkən tarixi ədalətsizliyə yol verildi, Qarabağın dağlıq və aran hissəsi süni şəkildə bir-birindən ayrıldı, erməni əhalisinin konsolidasiyası üçün əlverişli şərait yaradıldı, azərbaycanlıların demoqrafik mövqeyinə ciddi zərbə vuruldu. XX əsrin 20-60-cı illərində yəni, 1926, 1959, 1970, 1979-cu illərdə keçirilmiş siyahıya almalara görə DQMV-nin azərbaycanlı və erməni əhalisi müvafiq olaraq 10,1 və 89,1%”; 13,8 və 84,4%; 18,1 və 80,5%; 23,0 və 75,9% olmuşdur. Qarabağ erməniləri 1978-ci ildə köçürülmələrinin 150 illiyini qeyd etmiş, bu münasibətlə Mardakert - Ağdərə rayonunun Marağaşen - Leninavan kəndində xüsusi abidə qoymuşdular. Ermənilərin köçürüldüyü qeyd edildiyi kimi, həm Rusiyanın, həm də Ermənistanın siyasi mənafeləri ilə bağlı olmuşdur. Minlərlə erməni hər iki dövlətin bu fitnəkar siyasətinin düşünülmüş qurbanı olmuşdur. İqtisadi mənafe ilə bağlı olan məsələlərdə çox pərgar olan ermənilər bu siyasi oyunların acınacaqlı nəticələrindən dərs ala bilməmiş, Rusiya və Ermənistan liderlərinin onlar üçün müəyyən etdiyi fitnə və xəyanət rolunu həmişə canla-başla və amansızlıqla yerinə yetirmiş, hər dəfə də bu əməllərin qanunauyğun nəticəsi kimi milli məğlubiyyət və faciəyə düçar olmuşlar. Bu fitnəkarlığın başlıca obyekti olan Türkiyə və Azərbaycan müəyyən çətinliklərə baxmayaraq həmişə düşməni məhv edib, qələbəyə nail olmaqla çıxıb. 44 günlük Vətən savaşında Ermənistanın arxasında qala bütün xristian dünyasının hərbi, siyasi, maliyyə dəstəyinin dayanmasına baxmayaraq Azərbaycan Fateh Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqla olan möhtəşəm birliyi nəticəsində 30 il erməni işğalı altında olan torpaqlarımız azadlığına nail oldu. Bu gün artıq təmas xətti və münaqişə deyilən bölgə mövcud deyil, artıq bu gün ərazi bütövlüyü və suverenliyi bərpa olunan, dünyanın ən qüdrətli dövlətlərindən olan Azərbaycan var.

***İLHAM ƏLİYEV***

# Yağış:

## Təbii amil, yoxsa süni müdaxilə

***Son zamanlar Bakıya süni yağış yağdırılması barədə sosial şəbəkələrdə şayiələr yayılıb. Bəs, bu nə dərəcədə həqiqətə uyğundur? Ümumiyyətlə süni yağış nədir? Necə yaradılır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Əsrlər boyu bəşəriyyət su ehtiyatlarını artırmaq və ağır hava hadisələrinin təsirini azaltmaq üçün hava və iqlimi dəyişməyin yollarını araşdırıb. Hava dəyişikliyi üçün müasir texnologiya 1940-cı illərin sonunda bulud damcılarını buz kristallarına çevirmək üçün gümüş yodun istifadəsi ilə ortaya çıxdı.

Bu gün bəzi ölkələr enerji tələbatını ödəmək, dünyanın arid və yarımquraqlıq bölgələrində azalan su ehtiyatlarını zənginləşdirmək və mövcud ehtiyatların səviyyəsini artırmaq üçün yüzdən çox hava dəyişiklikləri layihəsi həyata keçirirlər. Bulud səpmə üsulu 1960-cı illərdən ABŞ-də işlənib hazırlanmış və bu günə qədər tətbiq olunmaqdadır. Dünyanın 24 ölkəsi daha çox yağış təmin etmək üçün bulud toxumundan istifadə edir.

Bulud strukturunun mürəkkəbliyi və dəyişkənliyi onu süni şəkildə dəyişdirmək cəhdlərini başa düşməyi çox çətinləşdirir. Statistika və bulud fizikası bilikləri və bu məlumatı hava dəyişikliyinə uyğunlaşdırmaq təcrübəsi artdıqca, bulud əkmə təcrübələrində yeni meyarlar ortaya çıxır. Orta ölçülü rabitə şəbəkəsi stansiyaları, avtomatik yağış ölçmə şəbəkəsi, külək profili təyinedicisi, mikrodalğalı radiometrlər, peyklər, radarlar, hava hərəkətini ölçmə sistemləri ilə təchiz edilmiş təyyarələr kimi yeni avadanlıqların yaranması və inkişafı bu baxımdan yeni ölçülərin ortaya çıxmasına kömək edir. Bununla paralel olaraq, eyni dərəcədə vacib məsələ kompüter sistemlərindəki inkişaflardır. Artan mürəkkəbliyin ədədi bulud modelləri ilə birlikdə istifadə edilən yeni məlumat dəstləri müxtəlif hava dəyişikliyi təcrübələrini sınaqdan keçirməyə kömək edir.

Tam inkişaf etdirilməmiş texnologiyaların yaratdığı risklər əməliyyat proqramlarında nəzərə alınmalıdır. Məsələn nəzərə almaq lazımdır ki, müəyyən şərtlərdə toxum əkilməsi daha çox doluya səbəb ola və ya yağıntıları azalda bilər.









### Bulud səpmə prosesinin tarixi

Bulud toxumlarının ilk tətbiqlərində Vincent Schaefer və Irving Langmuir (1940-cı illərin sonunda) quru buzun (bərk CO2) əzilmiş hissəciklərini təyyarədən toxum buludlarına atdılar. Buluda atılan kiçik hissəciklər havanı yeni maye damcılarının əmələ gələ biləcəyi temperatura qədər soyuyur və damcılar -40°C-dən aşağı donur. Sonra bu yeni əmələ gələn buz kristalları yığılır və yağış kimi düşəcək qədər böyüyür.

1947-ci ildə Bernard Vonnegut bulud əkmək üçün gümüş yodiddən istifadə etdi. Gümüş yodidin buz kristalına bənzər kristal quruluşu olduğu üçün -4°C və daha aşağı temperaturlarda təsirli buz nüvəsi kimi xidmət edir. Silver yodidi quru buzla işləmək daha asandır. Çünki o, təyyarənin qanadından və ya yer səthindəki mənbələrdən gələn yanar materiallardan buluda daşına bilər. Gümüş yodid bulud əkmə proseslərində ən çox istifadə olunur, baxmayaraq ki, qurğuşun yodidi və mis sulfid kimi digər maddələr də təsirli buz nüvələridir.

### Yağıntıların əmələ gəlməsi və buludların səpilməsi

Buludda yağış damcılarının əmələ gəlməsi Bergeron-Findeisen nəzəriyyəsi deyilən bir nəzəriyyə ilə də izah edilir. Bu nəzəriyyəyə görə, buz kristalları olmasaydı, yağış da olmazdı. Lakin sonradan aparılan araşdırmalar nəticəsində məlum olub ki, yağışlar buz kristalları olmayan bəzi buludlarda olur. Bu cür yağıntılar əsasən okean üzərində əmələ gələn cumulus buludlarında baş verir.

### Buludlarda yağıntıların zənginləşməsi

Yağış istehsal etmək üçün hər hansı bulud səpmə prosesində ilk problem toxum əkmək üçün uyğun bulud tapmaqdır (toxum buludları yaratmır). Bulud səpmə prosesində ikinci problem kondensasiya nüvəsi kimi xidmət edəcək hiqroskopik maddələrin buludda ən uyğun yerə vaxtında və lazımi miqdarda çatdırılmasıdır. Həmçinin, yaxşı nəticə əldə etmək üçün bulud soyuq olmalıdır. Bulud əkilməsi bulud hissəciklərinin böyüməsinə səbəb olan buz kristalı metodundan istifadə etdiyi üçün, buludun ən azı bir hissəsi həddindən artıq soyudulmalıdır.

Ekoloq Rövşən Abbasov: "Bakıya heç bir süni yağış yağdırılmır. Belə iddialar tamamilə əsassızdır. Son vaxtlar Bakıya süni yağış yağdırılacaq deyən mütəxəssislərin diqqətinə çatdırıram ki, süni yağışlar çox nadir hallarda tətbiq olunur və onların iqtisadi baxımdan effektivliyi hələ də mübahisə altındadır. Digər tərəfdən, süni yağışlar ekosistemlərə müxtəlif zərbələr vururlar və çirklənməyə səbəb olurlar. Çünki süni yağış yağan zaman buludlara süni olaraq kimyəvi maddələr səpilir".

### Bulud toxumu yağıntıları artırırmı?

Yağıntının artmasında gümüş yodidlə süni mayalanma nə dərəcədə effektivdir? Bu sual meteoroloqlar arasında qızğın müzakirə mövzusudur. Əvvəla, bulud səpilməsinin nəticələrini qiymətləndirmək çətindir.

Yağıntının çox az olduğu ərazilərdə və quraq mövsümdə orta yağıntılı ərazilərdə mövcud texnikalar əhəmiyyətli təsir göstərmir. Əgər belə olsaydı, Afrikanın quraq ölkələrində aclıq problemi həll edilə bilərdi. Yağışların çox yaxşı olduğu yerlərdə və mövsümlərdə ən yaxşı nəticələr əldə edə bilər. Yağış bir yerdə süni artırıldığı halda, başqa yerdə azala bilər. Bulud səpilməsini qiymətləndirərkən bulud növü, temperatur, rütubət və damcı ölçüsünün paylanması kimi digər amillər də nəzərə alınmalıdır. Bəzi təcrübələr bulud səpməsinin yağıntıları artırmadığını göstərsə də, digərləri düzgün şəraitdə bulud səpməsinin yağıntıları 5-20% artıracağını göstərmişdir.

### Hava modifikasiyasının ekoloji, sosial və iqtisadi aspektləri

Hava dəyişikliyi bəzi ölkələr tərəfindən iqtisadi fəaliyyət kimi qəbul edilir. Bulud səpmə prosesində iqtisadiyyat, ekologiya, sosial və hüquqi aspektlər nəzərə alınmalıdır. Qonşu ölkələrin sərhədlərinə yaxın yerlərdə hava dəyişikliyi aparılırsa, diqqət yetirilməli olan ən vacib məsələlərdən biri də hüquqi tənzimləmələrdir. Bu gün qanuni qaydalar və elmi məlumatlar bu cür hava dəyişiklikləri hadisələri üçün tam kifayət deyil.

Uzunmüddətli hava dəyişikliyi əməliyyatlarında ekosistemin təsirlənəcəyi bilinməlidir. Bu araşdırmalar nəticəsində ekosistemdə baş verə biləcək dəyişikliklərə qarşı tədbir görülməlidir. Xüsusilə əməliyyat prosesində mümkün mənfi təsirlər üçün həllər olmalıdır.

***Ayşən Vəli***

# Dünya çapında nadir əməkdaşlıq!

## Prezident İlham Əliyev: "Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvədə olmasından, sarsılmaz qardaşlığımızdan böyük fərəh hissi duyuruq"



"Dünyada güc mərkəzinə çevrilmiş qüdrətli Türkiyənin bütün uğurları bizi də öz uğurlarımız qədər sevindirir və ruhlandırır. Bu gün Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvədə olmasından, sarsılmaz qardaşlığımızdan böyük fərəh hissi duyuruq. Dinamik və fəal inkişaf edən, regional əməkdaşlığın onurğa sütununu təşkil edən müstəsna dövlətlərarası əlaqələrimiz bölgədə inkişafa, sülhə və təhlükəsizliyə böyük töhfə verməklə yanaşı, bütün Avrasiya üçün önəmli amil rolunu oynayır". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Respublika Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana və Türkiyə xalqına ünvanladığı təbrik məktubunda bildirilib. Azərbaycan-Türkiyə qardaşlığının dünyaya təqdimatı olan tarixi Zəfərimizdən bu günədək iki dost ölkənin Prezidentlərinin qarşılıqlı səfərləri, imzalanan sənədlər bu birliyin təzahürüdür. Azərbaycan ilə Türkiyə arasında dostluq qardaşlıq münasibətləri uğurla inkişaf edir və bütün sahələri əhatə edir. Bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm də regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilibdir.

Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. 1923-cü il oktyabrın 29-da idarəetmə formasına görə respublika elan olunan Türkiyə 101 ildir ki, müstəqil yaşayır. Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürk Qurtuluş savaşında Qərb ölkələri üzərində qələbədən sonra 1923-cü il oktyabrın 29-da Türkiyədə respublika qurulduğunu elan edib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Ötən il qardaş ölkədə seçkilərin tam demokratik şəkildə keçirilməsi və Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsi bu ölkənin gələcək uğurlarını təmin edəcəkdir. Onun liderliyi ilə Türkiyə inkişaf yolunda daha yüksək zirvələr fəth edəcəkdir. Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir."

**"AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ MÜTTƏFİQLİYİ BUNDAN SONRA DA BİRGƏ SƏYLƏRİMİZLƏ "BİR MİLLƏT İKİ DÖVLƏT" PRİNSİPİNƏ UYĞUN OLARAQ DAHA DA DƏRİNLƏŞƏCƏK VƏ MÖHKƏMLƏNƏCƏKDİR"**

Azərbaycanla Türkiyə arasında uğurla inkişaf edən münasibətlər regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsində mühüm rol oynayır. Ölkələrimizin siyasi-iqtisadi əlaqələri tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Türkiyə ilə əlaqələrimiz dərin tarixi köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir. Eyni kökə, dilə, dinə sahib xalqlarımızın minilliklərə söykənən qədim tarixinə nəzər saldıqda saysız-hesabsız qardaşlıq nümunələrinə rast gəlmək mümkündür. Türkiyə və Azərbaycan xalqlarının Ulu Öndərləri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları xalqlarımızın çoxəsrlik qardaşlıq əlaqələrinə verilən ən yüksək qiymətdir. Qeyd edək ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Qardaş ölkə Azərbaycanın müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il yanvarın 14-də qurulub. 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi fəaliyyətə başlayıb. Sonrakı illərdə - 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə isə Qarsda baş konsulluqları təsis edilib.

"Fəxrlə qeyd etmək istərdim ki, Türkiyə Respublikası tarixinin ikinci yüzilliyinə siyasi, iqtisadi, hərbi və digər hər bir cəhətdən qüdrətli, qabaqcıl və sabit, beynəlxalq aləmdə yüksək nüfuz və etimad qazanmış, qlobal məsələlərdə söz sahibi olan güclü ölkə olaraq qədəm basmışdır. Bütün bu möhtəşəm nailiyyətlərin əldə olunması məhz Sizin uzaqgörən və müdrik rəhbərliyiniz altında aparılan siyasət və gərgin əməyiniz nəticəsində mümkün olmuşdur", - deyə Prezident təbrikində bildirib: "İnanıram ki, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığı və birliyindən güc alan Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bundan sonra da birgə səylərimizlə "Bir millət iki dövlət" prinsipinə uyğun olaraq daha da dərinləşəcək və möhkəmlənəcəkdir".

İstər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində dostluq və əməkdaşlıq münasibətlərinin ən yüksək nümunəsini ortaya qoyan Azərbaycan və Türkiyə birlikdə nəhəng layihələr reallaşdırmaqla təkcə ölkələrimizin deyil, böyük bir regionun da inkişafına mühüm töhfələr verir. Azərbaycanın və Türkiyənin birlikdə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi meqalayihələrdən qardaş ölkələrimizlə yanaşı, digər xalqlar da faydalanır.

### AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN TARİXİNDƏ YENİ SƏHİFƏ

Ölkəmizin ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın otuz ilə yaxın davam edən işğalına son qoyulması ilə nəticələnən Vətən müharibəsi Azərbaycan-Türkiyə münasibətlərinin tarixində tamamilə yeni səhifə açdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında Azərbaycana açıq, dəqiq və birmənalı dəstək ifadə etməsi nəinki xalqımızı ruhlandırdı, eyni zamanda, müharibəyə müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı. Bu tarixi Qələbənin təntənəsi olan Zəfər paradında Azərbaycan və Türkiyə prezidentləri çıxışlarında dünyaya xalqlarımızın və ölkələrimizin qardaşlığının sarsılmazlığı və daim bir-birinin yanında olmaları barədə çox mühüm və aydın mesajlar verdilər. Qardaş ölkələrimizin dövlət başçılarının Zəfər paradında tarixi çıxışları qələbəmizin möhtəşəmliyini bir daha dünyaya çatdırdı.

Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi əsrlərdir ki, davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Əlbəttə ki, son illərdə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır.

### DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİNİN TƏNTƏNƏSİ

Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan-Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: "Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir", - deyə Prezident bildirmişdir. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

### MÜTTƏFİQLİK NÜMUNƏSİ

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə yüksəldilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gözdəymə:
## xurafat, yoxsa mənfi bioenerji?

***Yəqin ki, sizin də həyatınızda ”Sosial şəbəkədə uşağımın şəklini paylaşmıram, göz dəyər”, ”Həyat yoldaşımla paylaşım etmirəm, nəzər olar” kimi fikirlər səsləndirən kifayət qədər insanlar var. Bir sıra araşdırmalar göstərir ki, əslində biz belə düşünərək sanki o nəzər enerjisini üzərimizə çəkirik. Həmçinin qeyd edirlər ki, burada gizli eqo məsələsi də var. Yəni, mənə, başqasına, qonşuya yox, nəzər sırf sənə dəyər. Bir sözlə biz nəzərə inandıqda onu həyatımıza dəvət etmiş oluruq.***



### Bəs, həqiqətən də belədirmi?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Sosial şəbəkədə bədnəzər haqqında paylaşılan izləyici şərhlərini sizə təqdim edirik:

- İnsanlar hər şeyə nəzər dəyəcəyini düşünür. Hər kəsdə olan bir şeyə belə nəzər olacağını fikirləşirlər.

- Belə düşünüb, heç nə paylaşmayanların əksəriyyətinin ailə münasibətləri yaxşı deyil və bunu hər kəsdən gizlətməyə çalışırlar.

- Ötən gün rəfiqəm nə gözəl çiçəklərin var dedi. Sonrakı gün çiçəklərimin hamısı məhv oldu.

- Uşağımın şəklini paylaşdıqdan sonra gözünün hər dəfə eyni yerində sızanaq əmələ gəlir.



### Tarixi

Bütün cəmiyyətlərdə rast gəlinən bəd nəzər inancının mənşəyi Neolit dövrünə gedib çıxır. Tunc dövrünə aid balta şəklində hazırlanmış amuletlər Krit, Aşağı Misir, Malta, Şimali Fransa və İngiltərədə tapılıb.

### Türkiyədə bədnəzər anlayışı

Üstəlik, həyatında bəd nəzərlərə aludə olanların sayı da az deyil. Xüsusilə Anadoluda heyvan başları, qurbağa quyruğu, qoç buynuzları və nal kimi əşyalardan bəd nəzərlərə qarşı istifadə edilir.

Türkiyədə nəzərdən qorunmaq üçün ən çox tanınan nümunə”qurğuşun tökdürmək” dir. Əgər şəxs göz dəyibsə onun başından qurğuşun su dolu ləyənin içinə tökülür. Sonra müxtəlif dualar oxunardı.

### Dünyada bədnəzər anlayışı

Məsələn, fransızlar ”mauvais oeil” deyirlər, almanlar pis gözü ”böser blick” kimi təyin edirlər. Hollivud mədəniyyətində tez-tez rastlaşdığımız ”pis göz” inancının özüdür. Yenə də bu gün gündəlik dilimizdə işlətdiyimiz ”sehir” sözünün hind mənşəli ”sihi” mənası pis göz deməkdir.

Bu gün bəd nəzər türk cəmiyyətində ən ziyalıdan kəndliyə qədər güclü bir inanc olaraq özünə yer tapır.

### Azərbaycanda bədnəzər

**Qafqaz Müsəlmanları İdarəsinin sədr**



**müavini Hacı Fuad Nurullayev:** ”Nəinki din, həyatda da bədnəzər var. Bədnəzər deyilən anlayış bəd nəfs deyilən anlayış ruha söykənir, o hisslərlə bağlıdır. Məsələn, mənfi aura deyilən bir anlayış var. Bəzi adamla rastlaşırsan, ondan müsbət enerji əldə edə bilirsən. Bəzi də adamla rastlaşırsan o mənfi enerji sənə yönəlir və özünü çox pis hiss edirsən. Bəli, bəd nəzər, bəd nəfs deyilən bir anlayışdır, nəfslə bağlıdır. Yəni bir insanın iç dünyası ilə bağlıdır, bir insanın ruhu, varlığı ilə bağlı olduğu üçün özündən ətrafa müsbət enerji, bir də mənfi enerji paylayanlar var.



Müxtəlif formada mütəxəssislər, elm və din alimləri bunu təbii ki təsdiq edirlər. Əgər məsələn dünyəvi baxış və düşüncəyə sahib olan alimlər əgər bunu dinlə əlaqələndirmirsə, amma istər-istəməz hər bir insan təsdiq edir ki, mən müəyyən adamla təmasda olan zaman ondan müsbət enerji alıram, bəzi adamla təmas qururam və ondan mənfi enerji alıram. Bu reallıqdır, bu insanın zatına, geninə, fitrətinə bağlıdır. Məsələn, müsbət enerjiyə sahib olan insanlar onlar yaxşı əməl sahibidirlər, yaxşı insanlardır. Onlardan təbii ki ətrafa müsbət enerji səpələnir, onlarla həmsöhbət olanda onlardan qidalana bilirsən, onların dediklərindən güc toplayırsan. Amma elə insan var ki, onunla həmsöhbət olanda yüklənirsən, ağırlaşırsan, narahat olursan. Bunlar reallıqdır. Məsələn, hətta bəzi adamlar burada xırdalıqlara da varırlar. Müxtəlif formada nəhsliklərin ortaya qoyulmasi, qara pişik qabağımdan keçdi, bunu din təsdiq etmir. Mənə bəd nəzər dəydi. Bəd nəzər, pis nəfs, nəzər var. Amma bundan qorunmaq üçün bəzi adamlar gözmuncuğundan istifadə edirlər. Dində bu təsdiqlənmir. Bu hərəkətləri din inkar edir. Amma bəd nəzərin, bəd nəfsin olmasını təsdiq edir və bundan insanlar ziyanlıq çəkə bilərlər, insanın əhval-ruhiyyəsi pisləşə bilər, mənfi enerjili adamlarla təmas olanda və yaxud insanın əhval-ruhiyyəsi yaxşılaşa bilər, müsbət enerjili adamlarla təmasda olanda. Hətta bəzi adamlar ürəyinə salır ki, evindən küçəyə, bayıra çıxanda müsbət adamla rastlaşanda işi də yaxşı olur. Yəni həmin gün müsbət enerji ilə gəzir, müsbət əhval-ruhiyyə ilə dolanır. Amma bəzi adamlar var ki, onlar cəmiyyətdə mənfi adamlar kimi tanınırlar, yaxşı əməl sahibi kimi tanınmırlar. İnsan bəzən evindən çıxanda elə mənfi insanla rastlaşanda görürsən hətta bunu yoxlayıblar, bunu təcrübədən keçirən adamlar var deyir ki, pis adamla rastlaşdım işim düz gəlmədi və yaxud bəzi adamlar elə pis əməl sahiblərini, pis enerji paylayan adamları görəndə geri qayıdırlar və yenidən sonra Ya Allah, Bismillah deyib öz işinə davam edir. Belə faktlar da olur.

Bəli, bəd nəzər deyilən bir hisslər, bir mövcud olan belə bir mahiyyət kəsb edən belə bir anlayış mövcuddurmu? Bəli, mövcuddur, həqiqətdir və bəd nəfs deyilən belə bir anlayış da mövcud və həqiqətdir. Bunu dinimiz təsdiq edir və bunlardan qorunması üçün bizə məsləhət görür. İnsan nə etməlidir? Deyirlər ən gözəli Allaha sığınmaq, Allaha təvəkkül etməlidir. Ən gözəl də Allaha sığınma yolu necədir? Belə mənfi enerjili adamlar görəndə bunlardan uzaq olsun deyə sədəqə çıxarsın, yoxsullara, fəqirlərə, imkansızlara öz maddi imkanından nəsə versin, bir də maddi imkanı yoxdursa istiğfar, dua etsin, Allaha pənah aparsın, desin Allahım sən məni bədnəzərdən, bədnəfsdən qoru. Məsələn bildiyi Quran surələri varsa onlardan oxusun. Bunu dinimiz bəyənir və insan belə bir halda yalnız Allahına sığınmalıdır, Allahdan da köməklik istəməlidir. Bunlar faktdır. Allah-təala bizi bəd nəzərdən, bəd nəfsdən qorusun. Allah köməyiniz olsun”.

### Açıq-mavi gözlərdə nəzər olduğuna inanılır

İnsanlar arasında mavi gözlərin pis göz gücünə malik olduğuna inanılır. Bu inanca əsaslanaraq, mavi gözlü insanların pis niyyətli, paxıl və başqalarına zərər verməyi sevdiyi deyilir. Ancaq bu anlayışın düzgünlüyünü sübut edən qəti dəlil yoxdur. Bəzi bölgələrdə qısqanclığın pis gözə səbəb olması inancı da geniş yayılmışdır.

***Ayşən Vəli***

# Qarabağın zəruri imkanlara malik turizm potensialı

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Ordumuzun işğal altındakı torpaqlarımızı düşməndən azad etməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdığı kimi, ölkəmizin iqtisadi inkişafı üçün də yeni perspektivlər açmış oldu. Bu mənada, azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu ərazilərdə olan potensial əminliklə demək olar ki, dünyanın bütün qitələrindən olan turistlərin həmin məkanlara səfər etməsinə səbəb olacaqdır. Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur. Bu ərazilərin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri xarici turistlər üçün cəlbedici olacaq. Əlbəttə ki, coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Təbii ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir. Bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur.







Müxtəlif sahələrlə yanaşı, ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi də hazırlanıb. Qeyri-neft sektorunun inkişafında turizm sahəsinin xüsusi çəkisi var.

Azad olunmuş ərazilərimizdə qısa müddətdə müasir infrastruktur qurulub. Belə ki, Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdış həyata keçirilib. Digər yaşayış məntəqələrimizin yenidən qurulması və bərpası isə davam etdirilir. Qarabağda mövcud şərait - flora və faunanın rəngarəngliyi, iqlim, istirahət üçün zəruri hesab olunan amillər daha zəngin və cəlbedicidir. Bu amillər Azərbaycanın iqtisadi potensialının daha da yüksəlməsinə müsbət təsirini göstərəcəkdir. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğal dövründə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib.

Dünyanı ən nadir flora və faunası ilə zəngin olan Azərbaycan istirahət guşəsi kimi bütün imkanları özündə birləşdirir. Burada on bir iqlimdən doqquzunun mövcudluğu Azərbaycanın həqiqətən də cənnət beşiyi olduğunu əsasladıran amildir ki, ta qədimdən bu günə kimi tarixi sərvətləri ilə ölkəmizin qonağı olan insanların marağına səbəb olmuşdur.

Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.

Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Buna Azərbaycan iqtisadi gücü, potensialı var. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş cüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkindən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.




Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur. Bu ərazilərin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri xarici turistlər üçün cəlbedici olacaq.

Erməni vandallarının işğalına və təcavüzünə məruz qalmış tarixi abidələrimiz təmir və bərpa olunacaq və Azərbaycanın turizm məkanlarının coğrafiyası daha geniş bir məkanı əhatə edəcək. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən istirahət və müalicəvi məkanları dünyanın ən sayılıb-seçilən mərkəzləri olaraq diqqətdə olacaqdır.

Artıq Ağdamda abadlıq-quruculuq işlərinə start verilib. Ağdamın yeni, qaynar bir dövrü başlayıb. Ermənilərin vaxtilə dağıtdığı dini mədəniyyət abidələrimiz, tarixi yerlər yenidən bərpa olunacaq. Dövlət başçısının tövsiyə və göstərişləri əsasında şəhərdə 125 hektarlıq meşə zolağı salınacaq, süni göl yaradılacaqdır.

Buraya səfər edənləri heyrətləndirən çox məqamlar var. Görməli və gəzməli yerlərdə bir tarix yaşanır. 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidi Azərbaycan memarlığının incilərindən sayılır. Bu məscid də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Qutlu Musa türbəsi, Xanoğlu türbəsi, Şeyx Nigari türbəsi, Uğrulla bəyin türbəsi və s. bu şəhərin tarixinin qədimliyini özündə yaşadır. Tarixi memarlıq abidələri sırasında Pənah xanın imarəti, İki sandığa bənzər abidə, Karvansara, Hatəm Məlik qalası və digərləri hər bir kəsin diqqətində ola biləcək nümunələrdir ki, turistlərin marağında olacaqdır. Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı.

Ağdamdakı hər bir tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirir və bu məkanın tarixi dönəmlərdə inkişafda olduğunu bir daha göstərir. Belə bir şəhərə səfər edəcək turistlər zəngin təəssüratlarını hər kəslə paylaşacaqlar.

Ölkəmizin hər bir bölgəsinin belə turizm imkanları vardır. Ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün ölkənin zəngin coğrafi landşafta, flora və faunaya malikliyi əsas şərtlərdəndir. Zəngin mədəni, tarixi irsə və əlverişli təbii şəraitə malik Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir.

***Nəzakət Ələddinqızı***

# Qlobal əməkdaşlıqda yeni dövr - BRICS platforması

***BRICS 2006-cı ildə əsası qoyulmuş və hazırda 9 üzvdən ibarət olan çoxtərəfli əməkdaşlıq platforması olaraq dünya əhalisinin yarısını və qlobal iqtisadiyyatın təxminən dörddə birindən çoxunu əhatə edən geniş bir təsirə malikdir. Bu platforma hər il keçirilən rəsmi sammitlərlə geosiyasi siyasətlərin əlaqələndirilməsi və qlobal idarəetmə prosesində daha ədalətli nizamın qurulmasına yönəlmişdir.***

Bu çərçivədə Azərbaycanın regiondakı strateji mövqeyi və müstəqil xarici siyasət prinsipləri BRICS üçün əhəmiyyətli bir dəstək rolunu oynayır. Dövlətimizin başçısı İlham Əliyev, Kazan şəhərində keçirilən XVI BRICS Sammitində bu mövqeyimizi bir daha təsdiqlədi. Azərbaycanın Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməsi istiqamətində əldə etdiyi uğurlar və bu sahədəki qlobal əməkdaşlıq arzusu da Sammitdə xüsusi olaraq diqqətə çatdırıldı.

Prezident İlham Əliyevin çıxışında vurğuladığı kimi, Azərbaycanın xarici siyasəti müstəqil, balanslı və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanır. Bu siyasət hər hansı bir dövlətə qarşı təhdid yaratmamaq və qarşılıqlı hörmətə dayanan münasibətlər qurmaq məqsədi daşıyır. Azərbaycan ədalətsiz yanaşmalara qarşı sərt mövqedə dayanaraq beynəlxalq hüququn və suverenliyin qorunmasını ön planda saxlayır. Bu yanaşma Azərbaycanın dünya səhnəsində nüfuzunu artırır və onu ləyaqətli, qürurlu bir dövlət olaraq tanıdır. Artıq tarixin arxivinə atılmış Qarabağ münaqişəsində əldə olunan Qələbə isə Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən daha geniş miqyasda tanınmasına və nüfuzunun yüksəlməsinə təkan verib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik və xalqla iqtidar arasındakı möhkəm birlik Azərbaycanın xarici siyasətini dəstəkləyən əsas amillərdəndir. Bu dörd dayağın üzərində qurulan xarici siyasət strategiyası ölkəmizin həm regional, həm də beynəlxalq platformalarda uğurlar qazanmasını təmin edir. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Belə bir siyasət Azərbaycanın dost ölkələrlə tərəfdaşlıq əlaqələrini dərinləşdirərkən münaqişələrin həllində və regional təhlükəsizlikdə də əhəmiyyətli rol oynamaqdadır.






Prezident İlham Əliyev çıxışında Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipini dəstəklədiyini qeyd edərək, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurlu sədrliyi zamanı bu prinsipləri ardıcıl şəkildə həyata keçirdiyini vurğuladı. Bildirdi ki, bu müddət ərzində Azərbaycan Qoşulmama Hərəkatının institutlaşma prosesinə əhəmiyyətli töhfələr vermiş və təşkilatın beynəlxalq nüfuzunun möhkəmlənməsinə çalışmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Hərəkat dünya səviyyəsində güc mərkəzi kimi tanınmağa başlamış və ölkəmizin beynəlxalq miqyasda mövqeyini möhkəmləndirmişdir. Həmçinin Hərəkat üzvlərinin hüquqlarını müdafiə edərək, "Bandunq prinsipləri" çərçivəsində təşkilatın daimi və institusional inkişafını təmin etməklə diqqətə layiq nümunə göstərmişdir. Şuşa razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təsis edilməsi və daimi katibliyinin Bakıda yerləşdirilməsi Azərbaycanın təşkilata verdiyi dəstəyin bariz göstəricisidir.

Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşağına çevrilməsi istiqamətində atdığı addımlar da beynəlxalq ictimaiyyətin diqqətindədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşərək bu sahədə öz tranzit potensialını maksimum dərəcədə artırmağa çalışır. Ölkəmizin müasir nəqliyyat və logistika infrastrukturuna yatırdığı sərmayələr Azərbaycanı Asiya və Avropanı birləşdirən bir nəqliyyat qovşağına çevirmişdir. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti artıq Avrasiyanın əhəmiyyətli tranzit yollarından biri hesab olunur və bu layihələr Azərbaycanın tranzit gücünü möhkəmləndirir. Dövlətimizin başçısının sözlərinə görə, nəqliyyat sektoru Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına dəstək verən əsas sahələrdən biridir və ölkəmiz bu istiqamətdə ciddi uğurlar əldə etmişdir. Davos Dünya İqtisadi Forumunun hesabatlarında Azərbaycanın avtomobil yollarının keyfiyyəti üzrə dünyada öncül sıralarda yer alması da bu sahədə ölkəmizin nailiyyətlərindən biridir.

Prezident İlham Əliyev BRICS Sammitində çıxışı zamanı Azərbaycanın Zəngəzur dəhlizinin açılması və işğaldan azad edilmiş ərazilərdə beynəlxalq nəqliyyat infrastrukturu yaradılması istiqamətində gördüyü işlərdən də bəhs etdi. Füzuli və Zəngilan beynəlxalq hava limanlarının inşası və istifadəyə verilməsi, Laçın Beynəlxalq Hava Limanının isə yaxın gələcəkdə açılması Azərbaycanın nəqliyyat potensialını daha da artırmağa yönəlmiş əhəmiyyətli addımlardır. Bu hava limanlarının beynəlxalq statusa malik olması Azərbaycanın regionda və qlobal miqyasda nəqliyyat qovşağı kimi rolunu gücləndirir. Azərbaycanın nəqliyyat infrastrukturunun genişləndirilməsi işğaldan azad olunan ərazilərin iqtisadi inteqrasiyasını təmin edərək bu bölgələrdə iş yerləri yaratmağa və regionun iqtisadi cəhətdən inkişafına dəstək göstərməyə yönəlmişdir. Ölkəmizin beynəlxalq səviyyədə tanınan tranzit dəhlizi olaraq qəbul edilməsi Azərbaycanın strateji əhəmiyyətini və iqtisadi gücünü bir daha təsdiqləyir.

Azərbaycanın iqtisadi inkişafında nəqliyyat sektorunun rolu əhəmiyyətli olsa da, ölkəmiz üçün regional sülh və sabitlik də eyni dərəcədə vacibdir. Bu baxımdan Azərbaycanın həm nəqliyyat sahəsində lider mövqeyini gücləndirməsi, həm də sülh prosesində fəal rol oynaması Avrasiyanın strateji əhəmiyyətli bölgələrindən biri kimi çıxış etməsinə zəmin yaradır. XVI BRICS Sammiti çərçivəsində Prezident İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən son görüş də bu istiqamətdə mühüm addım olub.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apararaq, sülh və sabitliyin təmin edilməsi məqsədilə mühüm addımlar atılmasının vacibliyini vurğulayıblar. Hər iki ölkənin xarici işlər nazirlərinə "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş" üzərində işlərin mümkün qədər tez bir zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

Bu görüş, bölgədə sabitlik və təhlükəsizliyə töhfə verməklə yanaşı, Azərbaycan və Ermənistan arasında uzunmüddətli sülhə nail olunması yolunda yeni perspektivlərin açılmasını təmin etmək üçün mühüm addım olaraq qiymətləndirilir.

Beləliklə, Azərbaycanın beynəlxalq səviyyədə həm iqtisadi, həm də diplomatik sahələrdə davamlı olaraq nüfuzunu artırmağa yönələn siyasəti Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Azərbaycanın müstəqil xarici siyasəti, çoxşaxəli iqtisadiyyatı və beynəlxalq əlaqələri gələcəkdə də beynəlxalq aləmdə güclü dövlət kimi öz yerini qoruyacağına əminliklə yaradır. BRICS Sammitində Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan dünya iqtisadiyyatı və siyasətindəki rolunu daha da gücləndirərək strateji nəqliyyat və logistika mərkəzi kimi gələcəkdə də öz nüfuzunu artıracaqdır.

***Nigar Orucova***

# DİQQƏT: Altı günlük dərs həftəsi ləğv olunur?

*EKSPERT AÇIQLADI*



**“Azərbaycanın bir çox məktəbində 6 günlük dərs həftəsi, şagirdlərin təhsil prosesinə daha çox vaxt ayırması üçün tətbiq olunur. Bu sistemin məqsədi hər gün daha az saatlıq dərs proqramı ilə geniş tədris materialını əhatə etməkdir. Lakin 6 günlük dərs həftəsinin mənfi və müsbət tərəfləri şagirdlər üçün müxtəlif problemlər və faydalar yaradır, bəzi hallarda isə uşaqların yorulmasına, motivasiya və məhsuldarlıq itkilərinə səbəb olur”.**



Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib. O bildirib ki, 6 günlük dərs həftəsi uşaqların əlavə yorulmasına gətirib çıxara bilər: ”Şagirdlərin istirahət günlərinin məhdudlaşdırılması onların fiziki və zehni sağlamlığına mənfi təsir edə bilər: ”Tədris həftəsinin 6 gün olması şagirdlərin istirahət, ailə vaxtı keçirmək, hobbilərlə məşğul olmaq və sosial bacarıqlarını inkişaf etdirmək imkanlarını məhdudlaşdırır. Bu da məktəbdən kənar fəaliyyətlər üçün yetərli vaxt qalmamasına və motivasiyanın azalmasına səbəb olur. Həftəsonu olan yeganə istirahət günü olan bazar, şagirdlərin istirahət ehtiyacını tam qarşılamaq üçün kifayət etmir, bu da yorğunluq və stres səviyyəsinin artması ilə nəticələnir.

Əlavə olaraq, 6 günlük dərs həftəsi bəzi ailələr üçün sosial və iqtisadi çətinliklər yarada bilər. Valideynlər iş rejimini şagirdlərin tədris günlərinə uyğunlaşdırmalı, uşaqlarını məktəbə gətirib aparmaq üçün daha çox zaman və xərclər sərf etməlidirlər. Bu, xüsusilə valideynlərin hər ikisinin işlədiyi və həftə sonları uşaqlarla vaxt keçirməyi planlaşdıran ailələr üçün çətinlik yarada bilər.

Lakin 6 günlük dərs həftəsinin müsbət cəhətləri də mövcuddur. Bu sistem, təhsil proqramını daha geniş şəkildə əhatə etməyə imkan verir. Azərbaycan təhsil proqramı genişdir və bəzi fənlər həftədə bir və ya iki dəfə keçilir ki, bu da həmin mövzuların unudulmasını və ya dərindən öyrənilməməsini riskə atır. Tədris günlərinin sayının artması hər fənn üzrə dərslərin sayını artırmağa və şagirdlərə bilikləri daha yaxşı mənimsəməyə kömək edə bilər. Bu, xüsusilə ali təhsil almağa hazırlaşan yuxarı sinif şagirdləri üçün faydalıdır.

Həll yolu olaraq, Azərbaycan təhsil sistemi 5 günlük dərs həftəsinə keçid etməyi düşünə bilər. Bu, şagirdlərə əlavə istirahət günü verərək onların fiziki və zehni sağlamlığını qoruyar, məktəb və məktəbdən kənar həyat arasında balans yaratmağa kömək edər. Əgər 5 günlük dərs həftəsinə keçid həyata keçirilərsə, dərs saatlarının optimallaşdırılması, tədris materiallarının yenidən nəzərdən keçirilməsi və dərs proqramının daha yığcam şəkildə təşkil edilməsi vacibdir. Alternativ olaraq, məktəblər dərs proqramlarını daha səmərəli planlaşdırmaq üçün rəqəmsal və interaktiv metodlara üstünlük verə bilər. Bu metodlar dərs yükünü azaltmaqla yanaşı, mövzuların daha qısa zamanda daha effektiv öyrənilməsinə imkan verər.

Beləliklə, 6 günlük dərs həftəsinin tətbiqi təhsildə müəyyən faydalar təmin etsə də, balanslaşdırılmış yanaşmanın olmaması şagirdlərin sağlamlığına, motivasiyasına və ailə həyatına mənfi təsir göstərir. 5 günlük dərs həftəsinə keçidlə yanaşı, dərs proqramının optimallaşdırılması və yeni tədris metodlarının tətbiqi şagirdlərin inkişafını dəstəkləyən daha effektiv təhsil mühiti yaradacaqdır”.

***Səbinə Hüseynli***




## “BRICS üzvü olan ölkələr Azərbaycanla əməkdaşlıqdan məmnun qalacaqlar”

**“BRICS formatı Azərbaycanın öz imkanlarını nümayiş etdirmək, töhfə vermək və fayda götürmək baxımından əhəmiyyətli bir platformadır”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, Azərbaycan bu platforma ilə təşkilati olaraq əməkdaşlığı ilə bağlı yaxınlarda rəsmi müraciət edib: ”Azərbaycan aylar öncə belə müraciətlə çıxış etmişdi. Ancaq bir neçə ay keçəndən sonra Azərbaycanın müraciətinə reaksiya verilərək Azərbaycanın sammitə dəvət olunması ölkəmizin hər halda bütün potensialına, mövqeyinə, siyasətinə və nüfuzuna verilən dəyərdir.**

Çox vacib olan budur ki, Azərbaycanın belə çoxtərəfli platformalarda zəngin iş təcrübəsi var. Həm də bütün belə çoxtərəfli platformalarda Azərbaycan bəzi ölkələr kimi yük olmur. Əksinə həmin platformalara töhfələr verir. Məsələn, Azərbaycanın Qoşulmama Hərəkatında, sonra Qarşılıqlı Fəaliyyət Müşavirəsində, digər beynəlxalq çoxtərəfli platformalarda böyük iş təcrübəsi var. Töhfə vermək və fayda götürmək təcrübəsi var. Bu təcrübə ölkəmizə BRICS-də də faydalı əməkdaşlıq tərəfinə çevriləcəyini deməyə əsas verir.

Üstünlüklərdən biri budur ki, Azərbaycanın da bu gün güclü iqtisadiyyatı var. Bu iqtisadiyyat istər investisiya, istər ticarət, istərsə də digər əməkdaşlıq sahələrində ölkəmizə böyük meydan açır. Eyni zamanda Azərbaycanın BRICS təşkilatında çox üstün olacaq xüsusiyyətlərindən biri də bu təşkilata üzv ölkələrin çoxu ilə ayrı-ayrılıqda yaxşı münasibətlərə malik olmasıdır. O cümlədən, Rusiya, Braziliya, Çin, BƏƏ, Misir və digər ölkələrlə yaxşı münasibətlərin olması bu format çərçivəsində də özünü daha yüksək səviyyədə təsdiq edəcəyini söyləməyə əsas verir”.

”Bu ölkələrin böyük iqtisadi imkanları və insan resursları var. Böyük ticarət və investisiya imkanları var. Azərbaycanın da bu cəhətdən geniş imkanlara malik olması arada əməkdaşlıq üçün böyük meydan və arena aça bilir. Bir sözlə, BRICS platformasında Azərbaycanın fəaliyyəti ölkənin xarici siyasətinin yeni mühüm istiqamətlərindən birini təşkil edəcək. Yəqin ki, BRICS üzvü olan ölkələr Azərbaycanla əməkdaşlıqdan məmnun qalacaqlar. Çünki bu ölkənin töhfə vermək, fayda götürmək və qarşılıqlı mənafelərə yüksək səviyyədə hörmətlə yanaşmaq təcrübəsi var” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



FELYETON

## Ən yaxşısı geridə qalmaqdır

Deyəndə ki, çoxlarımız geridə qalmışıq, məni qınayırlar ki, sən özün geridə qaldığın üçün müasirliyi görə bilmirsən. Dedim, axı necə edim ki, özümə bir çeki-düzən verim, mən də müasirləşim, öndə olanların cərgəsinə qoşulum. Fikirləşdim ki, gözlərimi dörd açmalıyam bundan sonra. Gör-götür dünyasıdır. Baxım, görüm, nə görürəm?..

Şənbə günü metroda qatara girən kimi gözlərimi dörd açdım ki, bu müasirliklərdən bəlkə bir-ikisini əxz edəm. Baxdım ki, qarşımda bir ana, bir də 5-6 yaşında olan balası əyləşib. Ana özündən razı, müasirliyi ilə ətrafdakılara meydan oxuyan biri idi. Hələ onu da düşündüm ki, görən bunun metroda nə işi var, yoxsa bizim kimi onun da maşını yoxdur, ya da ki, şəhərdəki ”probkadan” cana gəlib yerin üstündən imtina edib, altına girib.

Nə isə, uzun sözün qısası, bu anabalanın hər birinin əlində iri bir smartfon var idi. Uşaq səsli-küylü bir oyun oynayırdı. Ana da telefonda elə məşğul idi ki, başını qaldırıb ətrafa nədir, uşağına da aradabir baxmırdı. Birdən uşağın əli nəyəsə toxundu və yəqin ki oyun itdi. Anasını dümsüklədi. Ana da uşağın üzünə belə baxmadı. Çiyinlərindən qırqovul kimi yapışıb, o tərəfindən götürüb bu tərəfinə qoydu. Yox, qoymadı, çırpdı və ”əşi, əl çək də”,- deyərək elə ucadan bir səs çıxardı ki, hamı dönüb onlara baxdı.

Uşaq da qəfil zərbədən elə bil ”zıq” elədi və səsini kəsdi. Düzdür, yenə telefonda nəyəsə baxırdı. Amma qorxudan ta anadan heç nə soruşmadı.

Ananın da qaş-qabağı yer ilə gedirdi. Özü başdan-ayağa ağappaq geyinsə də, deyirsən bəs, Qara dənizdə gəmiləri batıb. Elə bu zaman qatar dayandı. Ana uşağın qolundan yenə qırqovulsayağı dartıb qatarın qapısından bayıra atdı.

Dedim bax, bu da mənim əməlim. Saki gözlərimi dörd açmışam, gördüyümə bax. Düzü, gördüyüm mənzərə heç xoş olmadı. Nə deyirsiniz, mən də müasir olmaq üçün belə edim? Azyaşlı uşağın əlinə telefon verib müasir ailə modeli yaradım? Verə bilmərəm. Birini də özüm alım əlimə, uşaqdan xəbərim olmasın? Edə bilmərəm. Uşaq bir söz soruşanda onu ora-bura çırpım? Yox, əsla edə bilmərəm. Özüm də başdan-ayağa ağappaq geyinim ki, mən müasirəm, dəblə ayaqlaşıram, hamıdan fərqliyəm? Bunu da edə bilmərəm. Çünki gözümlə gördüm ki, ağ necə də tez ləkə götürür.

Yox, yox, ay bacılar, qardaşlar, məni anlayın, başa düşün. Mən xarici görünüşdəki müasirlikdən yox, içəridəkindən istəyirəm. İçərini də görə bilmədiyim üçün, deməli, mən həmişə geridə qalmış olacağam. Və belə düşünürəm ki, ən yaxşısı geridə qalmaqdır.

***Mətanət Məmmədova***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Bəşəriyyət yeni təhlükə ilə üz-üzə: **Cinslərin müharibəsindən sağ çıxacağıqmı?**



***Son dövrlər mənəvi və iqtisadi cəhətdən ağır təzyiq altında qalmış və dağılmaqda olan ailə institutunun qorunmasına son dərəcə ciddi ehtiyac var. Çünki bu tendensiya sivilizasiyamızın sonunu gətirə bilər. Bu haqda Britaniyanın”UnHerd” nəşrində dərc edilmiş ”Bəşəriyyət yeni təhlükə ilə üz-üzə” adlı yazısını oxucularımıza təqdim edirik.***

Müasir cəmiyyətdə cinsi yaxınlıq və ailə həyatı getdikcə daha az populyarlaşır. Kişilər və qadınlar arasında siyasi baxışlardakı uçurum bu gün 25 il əvvəlkindən 5 dəfə çoxdur. Cinslərin müharibəsi sivilizasiyanın özünü təhdid edir,- məqalə müəllifi şikayətlənir.

Tarix boyu bütün bəşər sivilizasiyası kişi və qadının xoşbəxt ünsiyyəti və onun əlavə məhsulu olan uşaqlar tərəfindən idarə edilmişdir. Freyd özü də ailənin vazkeçilməz olduğunu hesab edirdi: ”Eros və Ananke (sevgi və zərurət) bəşər sivilizasiyasının əcdadları oldu”-, o, ”Mədəniyyətin narazılıqları” əsərində yazır.

Bu gün isə cinsi yaxınlığın və ailə həyatının ən elementar səviyyədə sarsıldığı cəmiyyətə doğru irəliləyirik. Nəticələr artıq tanışlıq nümunələrinin dəyişməsində və bütün evlilik, ailə və uşaq dünyaya gətirmə nisbətlərinin azalmasında aydın görünür. Üstəlik, bu xəstəlik təkcə Qərbə təsir etməyib: dünyada insanların əksəriyyəti doğum səviyyəsinin əvəzetmə səviyyəsindən xeyli aşağı olduğu ölkələrdə yaşayır. 2050-ci ilə qədər 61 ölkədə əhalinin azalması gözlənilir.

Müəyyən dərəcədə bu cins müharibəsinin kökləri iqtisadidir. Vəziyyəti həyat səviyyəsinin yüksək olması- gəlirlərə nisbətən mənzil qiymətlərinin artması, enerji xərclərinin artması və ərzaq səbətinin bahalaşması daha da ağırlaşdırır. Sabit karyera və ev sahibliyi ümidlərinin azalması ilə bir çox gənc evlilik və ailə ilə uyğun gəlməyən həyat tərzini seçirəsasən ehtiyac üzündən.

Bu, ən çox Qərbdə özünü büruzə verdi- burada təkcə ailə deyil, heteroseksual münasibətlər də unudulub. Ancaq Şərqi Asiyada kişilər və qadınlar arasında münasibətlərin pozulması daha da irəli gedib. Beləliklə, bütün qitədə demoqrafik tendensiyaların xəbərçisi olan Yaponiyada 20-30 yaş arası gənclərin tam dörddə biri evli deyil və bakirədir. Üstəlik, yaponlarda hətta gənc kişilərin passiv, aseksual nəsli üçün xüsusi bir epitet var- ”ot yeyənlər”.



Eyni şey Çinə də aiddir: bir vaxtlar qohumbazlığı ilə məşhur olan ölkədə nə az, nə çox 200 milyon subay var. Bir vaxtlar demək olar ki, ağlasığmaz olan 17-36 yaşlı tənha çinlilərin nisbəti demək olar ki, 70%-ə çatıb. Z nəslinin (1997-ci ildən 2012-ci ilədək anadan olanlar, cəmiyyətin qlobal rəqəmsallaşması kontekstində belə çağrılır) bir Çin nümayəndəsinin dediyi kimi, ”evlilik və uşaq doğurmaq, biz gənclər üçün demək olar ki, həyat stressinin sinonimi” halına gəlib.

Və bu demoqrafik böhran istər-istəməz siyasi xarakter alır. Vətəndaş həyatının ciddi şəkildə idarə olunduğu Çin və Rusiya kimi mühafizəkar cəmiyyətlərdə cinslərin hazırkı müharibəsinin bütün siyasi nəticələrini bilə bilmərik. Lakin ABŞ-da yeni bölünmə xətləri getdikcə daha çox görünür. Göründüyü kimi, qadınlar, xüsusən də subay qadınlar ”mütərəqqi” siyasətin lokomotivinə çevriliblər. Kanadada da eynidir, burada 2020-ci il sorğuları qadınların ”Liberallar”a ikiyə bir nisbəti ilə səs verdiyini, kişilərin isə ”Mühafizəkarlar”a üstünlük verdiyini göstərdi.

Siyasətdə gender fərqinin özü yeni bir şey deyil, lakin Gallup-un son sorğularına görə, bu, 2000-ci ildəkindən 5 dəfə artıqdır. Sorğunun nəticələrinə görə, 1999-2013-cü illərdə 18-29 yaş arası qadınların təxminən 30%-i özlərini liberal hesab edirdilər. 2023-cü ilə qədər onların payı 40%-ə yüksəlib. Daha da əhəmiyyətlisi, Gallup elit kolleclərdə liberalizmə doğru xüsusilə dramatik dəyişikliklər tapıb.

Bu, getdikcə daha çox sağa meyl edən kişilərlə necə bir təzad təşkil edir- xüsusən də fəhlə sinfindən! Donald Trampı getdikcə daha çox dəstəkləyən gənc amerikalıların ardınca yaşı 30-dan aşağı olan avropalı kişilər də getdikcə sağa doğru hərəkət edirlər. Cənubi Koreyalı gənclərin sağa keçidi o qədər güclü olub ki, prezidentliyə açıq bir ”anti-feminist” yerləşdirilib.



”Postseksual” Qərb cəmiyyəti cəlbedici olmayacaq. Birincisi, cinsi münasibətlərin pozulması ailələrdə sərvət toplamağa ənənəvi vurğunu pozur. Təəccüblü deyil ki, Birləşmiş Ştatlarda ev sahiblərinin 77%-i evli cütlüklərdir- axırda onlar resursları birlikdə xərcləyə bilərlər. Lakin bu ənənəvi vurğunun zəiflədiyi bir cəmiyyətdə dövlət dəstəyinə tələb hədsiz dərəcədə arta bilər.

Gənc ailələrin perspektivlərini gücləndirmək əvəzinə, icarə subsidiyalarının və hətta birbaşa dəstəyin genişləndirilməsi çağırışları artır. Bu yaxınlarda Atlantada 10 min tərəfdarı qarşısında keçirilən mitinqdə Kamala Harris korporativ ev sahiblərini ”cilovlamağa” və ”ədalətsiz” kirayə artımlarını cilovlamağa söz verdi. Bayden yarışdan çıxmazdan əvvəl Harris X-də (əvvəlki Twitter) ”hər bir amerikalının əlverişli mənzilə layiq olduğuna” dərin inamını bildirmişdi.

Bu, Bayden administrasiyasının 50 və ya daha çox vahidi olan ev sahibləri üçün kirayə haqqının 5% artırılması çağırışına aiddirəks halda onlar federal vergi güzəştlərini itirəcəklər. O, həmçinin yaşlıların sağlamlığına xidmət proqramını bütün Amerika əhalisi üçün genişləndirməyə və əslində işəgötürən əsaslı sığorta ilə əvəz etməyə çağırdı, lakin sonradan bu qeyri-populyar ideyadan imtina etdi.

Çoxları üçün ailə həmrəyliyi, hətta düşüncədə belə, əsas dəstək mənbəyi olmaqdan çıxıb. Vəd edilən ”tərəqqi” əvəzinə cinslərin müharibəsi və qohumluğun çöküşü, əksinə, cəmiyyətin tənəzzülünü sürətləndirəcək. Bəzi hesablamalara görə, əhalinin 15%-ə qədərinin subay olduğu və klassik ailə dəyərlərinin teoloji mübahisələrə yol açdığı bir növ yeni Orta əsrlər yaşayırıq. Künc yazarı Riçard Reevesin qeyd etdiyi kimi, ”Siz mədəni sahədə yan təsirləri yaşamadan 12 min illik sosial nizamı alt-üst edə bilməzsiniz”.

Görünür, ABŞ-ın Baş cərrahının dediyi kimi, gələcək tam birliksizliyə və ”tənhalıq epidemiyasına” qalib gələcək olanlara məxsusdur. 2020-ci ildə ABŞ-dakı bütün ev təsərrüfatlarının 28%-i subay insanlardan ibarət idi, 1940-cı ildə bu rəqəm cəmi 8% idi. Üç il sonra ”Pew Center” müəyyən etdi ki, amerikalıların 10%-nin yaxın dostları yoxdur və ya heç vaxt olmayıb.

Və bu təkcə Amerika faciəsi deyil. Yaponiya, Tayvan, Cənubi Koreya, Sinqapur, Honq-Konq, indi isə Çin oxşar şəkildə inkişaf edir. Yaponiyada subayların nisbətinin 2040-cı ilə qədər 40%-ə çatacağı gözlənilir. Onsuz da Yaponiyada müxtəlif hesablamalara görə, hər həftə 4 minə qədər insan tənha ölür.

Cinsi münasibətlərdə dəyişiklik qaçılmazdır və müəyyən mənada insanı azad edir. Lakin daha geniş mənada cinslərin müharibəsi sivilizasiyanın özü üçün kritik bir təhlükədir. Sinqapurda aparılan mühüm tədqiqatlardan birində qeyd edildiyi kimi, ailə təkcə cəmiyyəti dəstəkləmir, həm də vətəndaşlar üçün ”emosional, iqtisadi və maliyyə dəstəyinin əsas mənbəyi”, eləcə də ”bütün cəmiyyəti mənfi təsirlərdən qorumağın ən yaxşı yolu” kimi xidmət edir. Həm də, bu, rəqabətədavamlı iqtisadiyyatdır”. Güclü qohumluq bağları olmasa, başıboş qalan insanlar maddi ləzzətlərdə, dövlət dəstəyində və virtual aləmlərdə təsəlli axtarmağa məcbur olacaqlar.

Əgər həll edilməzsə, ailələrin azalması son dərəcə qaranlıq gələcək vəd edir- yalnız yaşlı əhalinin artdığı, uşaqlı ailələrin isə azaldığı və artan təzyiq altında olduğu distopiya. Hökumətlər- istər Amerikada, istər Fransada, istər Yaponiyada, istərsə də Skandinaviyada - hələ də bu prosesi dayandırmaq üçün effektiv iş görmürlər.

Bəlkə də məsələ ondadır ki, bu, mənəviyyat məsələsidir- təkcə iqtisadi stimullar kifayət etmir. Romantik sevgini yenidən kəşf etmək və övlad yetişdirməyin böyük dəyərini dərk etmək lazımdır. Freyd, ola bilsin, ailə həyatının problemlərini üzə çıxarıb, lakin o, hər hansı bir uğurlu sivilizasiyanın təməlində bunun dayandığını anlayırdı.

***Tərcümə - Elçin Bayramlı***

# Hansı qərarla qanunsuz tikili sökülə bilər?



***Qanunsuz tikinti tikilinin icazəsiz olaraq tikilməsi demək deyil. Hamıya məlumdur ki, bəzi nəzarətedici qurumlar vətəndaşların sənədi olmasa belə, onlara müəyyən şərtlərlə tikinti aparmağa icazə verir. Həmin tikililər söküldükdə isə zərər ancaq vətəndaşa dəyir. İndi vətəndaşlar üçün maraqlıdır ki, qanunsuz tikililər hansı halda sökülə bilər? Ümumiyyətlə, müvafiq qurum hansı qərarla qanunsuz tikilini sökə bilər? SİA mövzu ilə bağlı Vəkillər Kollegiyasının üzvü Rəşad Əliyev və hüquqşünas Əkrəm Həsənovun fikirlərini öyrənib.***

Vəkillər Kollegiyasının üzvü Rəşad Əliyev: "Özbaşına tikinti dedikdə tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak nəzərdə tutulur.

Özbaşına tikinti və onun nəticələri Azərbaycan Respublikası Mülki Məcəlləsinin 180-ci maddəsi ilə tənzimlənir. Qanunun normasına əsasən, özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək - onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun. Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz.

Tikintisi başa çatmış və ya çatmamış tikinti obyektinin sökülməsi isə Şəhərsalma və Tikinti Məcəlləsi ilə tənzimlənir. Belə ki, bu məcəllə qüvvəyə mindikdən sonra başlanılmış və tikinti mərhələsində olan tikinti obyekti və ya onun hissəsi müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində inşa edildikdə, həmçinin müvafiq icazə olmadan aparıldığına görə və ya və aşkarlanmış pozuntlara görə tikinti işləri dayandırılıbsa, qanunvericilikdə müəyyən olunmuş müddətdə müvafiq icazə alınmazsa və ya pozuntular aradan qaldırılmazsa, tikinti obyektinin sökülməsi barədə qərar qəbul edilir".

Hüquqşünas Əkrəm Həsənov: "Atadan qalan boş torpağın çıxarışı varmı, yoxmu, ona baxmaq lazımdır. İkincisi, oğul vərəsə kimi torpağı öz adına keçiribmi? Ola bilər ki, ondan başqa digər qardaşları, bacılar olsun. Bundan sonra artıq tikinti məsələsinə gəlib çıxırıq. Tikintinin də şəhərsalma məcəlləsinə görə qaydaları var. Müəyyən metrə, hündürlüyə qədər yalnız məlumat verib tikirsə, müəyyən hündürlükdən yuxarı olanda icazə almalısan.

Amma hər bir halda qanunsuz olduğunu deyirlərsə, yəqin ki, nə isə qaydasında getməyib. Hər bir halda vətəndaş haqlıdırsa, o zaman məhkəməyə getmək olar. Haqlı deyilsə, qanuna tabe olmalı və evi sökməlidir".

***Söylü Ağazadə***

## ELAN

### "GƏNCƏ-TİCARƏT-044" ATSC səhmdarlarının nəzərinə!

"GƏNCƏ-TİCARƏT-044" ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı "2" dekabr 2024-cü il saat 14:00-da, cəmiyyətin yerləşdiyi inzibatı binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

**1.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyasının təsdiq edilməsi.

**2.** Cəmiyyətin İcra və nəzarət orqanının seçilməsi.

Səhmdarlar növbədənkənar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 1000-dan 1800-dək, Səhmdar Cəmiyyətin Gəncə şəhəri, N.Nərimanov küçəsi 41A ünvanında yerləşən inzibati binasında səhmdar cəmiyyətin əsas səhm sahibi Bədirbəyli Kəmalə Cəbrayıl qızına müraciət etməklə tanış ola bilərlər .

Yığıncaqda iştirak etmək vacibdir.

***Ünvan: Gəncə şəhəri, N.Nərimanov küçəsi 41A.***

***Səhmdar***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Qardaşı arvadını qətlə yetirən şəxsə hökm oxunub



Qardaşı arvadını qətlə yetirməkdə ittiham olunan şəxsin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. SİA xəbər verir ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Xamməd Nuriyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Təqsirləndirilən Elgiz Məhərrəmov Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə təqsirli bilinərək cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə bu il mayın 2-də Ağcabədi rayonunun Sarıcalı kəndində baş verib. Təqsirləndirilən şəxs qardaşının həyat yoldaşı Nəzmiyyə Məhərrəmovanı onu ata evində bıçaqla qətlə yetirib. Hadisənin qısqanclıq zəminində baş verdiyi bildirilir.

## Kürdəmirdə yol qəzası olub, polis əməkdaşı həlak olub



Kürdəmirdə ağır yol-nəqliyyat hadisəsi baş verib. Hadisə rayonun Muradlı kəndində qeydə alınıb. Tehran Səlimovun idarə etdiyi "KİA Optima" markalı avtomobillə əks yoldan gələn Firudun Həsənovun idarə etdiyi "JAC" markalı yük avtomobili ilə toqquşub. Toqquşmanın nəticəsində hər iki avtomobil yolun kənarına aşıb. Nəticədə polis əməkdaşı olan Tehran Səlimov hadisə yerində ölüb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**